

Firidun bəy Köçərli

# BALALARA HƏDİYYƏ




Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firidun bəy Köçərli

# BALALARA HƏDİYYƏ

*Kitab "Firidun bəy Köçərlinin 150 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2013-cü il tarixli 2720 nömrəli Sərəncamına əsasən nəşr olunur.*

Şərq Qərb 1986-cı ildən
East West since 1986
BAKI 2013

*Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və "Şərq-Qərb" Nəşriyyat Evi təqdim olunmuş materiallara və kitabın hazırlanmasında göstərilən dəstəyə görə F.Köçərli adına Respublika Uşaq Kitabxanasına dərin təşəkkürünü bildirir.*

**Firidun bəy Köçərli**
Balalara hədiyyə

Bakı, "**Şərq-Qərb**" Nəşriyyat Evi, 2013, 172 səh., 19 illüstrasiya

**ISBN** 978-9952-40-449-4

Rəssam: **Arif Hüseynov,**
*xalq rəssamı*

Redaktor: **Samirə Bektaşi**

Azərbaycan xalqının böyük maarifpərvər oğlu Firidun bəy Köçərli geniş xalq kütləsinin savadlanması yolunda çox iş görmüşdür. 1912-ci ildə çap olunan "Balalara hədiyyə" kitabı da belə ali məqsəd daşıyırdı.

"Balalara hədiyyə" kitabında müəllif Azərbaycan folkloruna aid topladığı materialları oxuculara çatdırmışdır.

Kitabda uşaqların çox sevdiyi "Göyçək Fatmanın nağılı", "Pıspısa xanım və Siçan bəy" kimi məşhur xalq nağılları, sayaçı sözlər və düzgülər yer almışdır.

Kitab "Gənclik" nəşriyyatının 1967-ci il və 1987-ci il nəşrləri əsasında hazırlanmışdır.

© Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

Şərq Qərb East West since 1986 BAKI 2013
www.eastwest.az
www.fb.com/eastwest.az

## MÜHƏRRİRİN İFADEYİ-MƏRAMI

### Kiçik ixtisarla

Keçmişdə şan və qüvvət sahibi olan türk (azərbaycanlı-red.) milləti öz məişətinə, ayin və adətinə dair yaratdığı qısım-qısım nağıl və hekayələr, gözəl mənzumə və əbyatlar, hikmətamiz məsəllər, atalar sözləri, nazik (incə red.) mənalı müəmma və tapmacalar, balalar qəlbi açan düzgülər və yanıltmaclar, heyvanat qisminə məxsus sayaçı sözləri mürur ilə xatirələrdən çıxıbdır və bu halda unudulmaqdadır. O millət ki öz tarixini, dolanacağını, Vətənini və dilini sevir, bu qism əsərləri kəmali şövq və diqqətlə cəm edib ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsi onları öyrətməklə başlayır.

Balalara hədiyyə olaraq millətimizin yaratdığı nağıl və hekayələrdən, məsəl və tapmacalardan və bir çox mənzumələrdən bu məcmuəni tərtib qıldıq ki, onlar unudulub xatirələrdən çıxmasın.

Məcmuəyə daxil olan ancaq "Tülkü və üzüm" təmsili ruscadan tərcümə olunubdur. Mütərcim Eynəlibəy Sultanov öz dilimizin şivəsini itirməyibdir. Möhtərəm şairimiz Abbasağa Nazirin və mərhum Mustafa ağa Arifin və Mehdiqulu xan Vəfanın bir neçə əsərləri dəxi məcmuədə dərc olunubdur ki, onların məna cəhətcə balaların ruhuna gözəl təsiri ola bilər. Qasım bəy Zakirin təmsilat mənzuməsi millətimizin məişətindən götürülmüş və onun dili ilə söylənmiş əsərlərdir...

Zənnimizcə, bu məcmuəni hər kəs oxusa – böyük, ya kiçik – onun qəlbi açılıb xəndan olacaqdır. Balalar şad olacaq bu səbəbə ki, onda dərc olunan əsərlərin cümləsi onların dünyasındadır. Böyük adamların ürəklərinin açılmağına səbəb bu olacaqdır ki, onlar mütaliə əsnasında öz uşaqlıq vaxtlarını ixtiyarsız xatırlarına götürəcəklər. Bu isə, yəni qəlbi şad etmək, özlüyündə bir xidmətdir.

**F.Köçərli**

## İT VƏ PİŞİK

İt dedi:

– Mən heç qocalmazdım, amma məni pişiyin dərdi qocaltdı.

Dedilər:

– Niyə bəs?

Dedi:

– Çöllərdə qalıb, dalını ayaza verən mən oluram, gecələr sabaha kimi yatmayan, evi-eşiyi qoruyan mən oluram, amma elə ki istəyirəm, başımı qapıdan içəri uzadam, bu pişikciyəz əlini uzadıb üzümü-gözümü cırmaqlayır.

### Məsəllər:

İt it ilə dalaşdı, yolçunun işi avanda düşdü.
İtin axmağı qaysabadan[1] pay umar.
İtin ayağını köçdən kim əsirgər?
İt hürər, karvan keçər.

### Tapmacalar:

1. Atdan uca, itdən alçaq.
2. Bizdə bir kişi var,
   Xor-xor yatışı var.

---

[1] Q a y s a b a – xörək növü



# XORUZ VƏ PADŞAH

Biri var imiş, biri yox imiş, Allahdan başqa heç kəs yox imiş. Bir də bir xoruz var imiş.

Bir gün xoruz peyinlikdə eşələnib özünə yem axtaranda bir qaraca pul tapdı, şad olub başladı oxumağa:

– Quqquluqu! Bircə şahı tapmışam.

Padşah xoruzun səsini eşidib buyurdu ki, gedib onun pulunu əlindən alsınlar. Şahını xoruzun əlindən alandan sonra başladı oxumağa:

– Quqquluqu! Padşah mənə möhtac imiş!

Padşah buyurdu ki, şahısını aparıb özünə versinlər.

Xoruz oxudu:

– Quqquluqu! Padşah da məndən qorxar imiş!

Padşah bunu eşidəndə xoruza acıqlanıb buyurdu ki, onu tutub öldürsünlər. Xoruzun başını kəsəndə oxudu:

– Quqquluqu! Nə iti bıçaq imiş!

Xoruzun başını kəscək onu basdılar qaynar suya ki, tükünü yolsunlar. Qaynar qazanın içində xoruz oxudu:

– Quqquluqu! Nə isti hamam imiş!

Xoruzu qazanın içindən çıxarıb tükünü yoldular və bişirib qoydular plovun başına. Burada xoruz oxudu:

– Quqquluqu! Nə ağca təpə imiş!

Plovu gətirdilər padşahın qabağına. Padşah plovu yeyəndə xoruz onun boğazında yenə oxudu:

– Quqquluqu! Nə darca küçə imiş!

Ondan sonra xoruz getdi qaranlıq yerə, orada oxudusa da, kimsə səsini eşitmədi.

**M ə s ə l:**

Xoruz olmasa, səhər açılmaz.

**T a p m a c a:**

3. Çağırdım bərkdən,
Səs verdi kənddən,
Ağzı sümükdən,
Saqqalı ətdən.

## QANACAQLI QARAÇI

Bir gün bir qaraçı yatıb röyasında bir qab ləzzətli umac görür. Amma qaşığı yox idi ki, yesin. Gələn səfər yatanda qaraçı yanına bir qaşıq qoydu. Amma yuxusunda bir zad görmədi.

**M ə s ə l l ə r:**

Ac toyuq yuxusunda darı görər.
İştahasızın yuxusuna beş arşın bez girər.
Vaxt olar ki, şahın da qaraçıya işi düşər.
Özünə umac ova bilmir, özgəyə əriştə kəsir.



## TÜLKÜ

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə nəlbəki.
Aslan ala ağamız,
Qaplan qara qağamız,
Xoruz bizim mollamız,
Çaqqal da çavuşumuz,
Alaqarğa carçımız,
Sağsaqan xəbərçimiz,
Toyuq bizim çərçimiz,
İlan bizim qamçımız.
Sarı babada gəzərsən,
Bir çomaq vurram ölərsən.
Tülkü, tülkü, tülkü, səni
Öldürərlər bil ki, səni!

## ÜZLÜ QONAQ VƏ EV YİYƏSİ

E v y i y ə s i: - Pişiyim, pişiyim muyuna,
Çıxma dovşan ovuna.
Qonaq bu gün burdadır,
Sabah gedər evinə.

Q o n a q: - Pişiyim, pişiyim sərasər,
Eşiyə çıxma, yel əsər.
Qonaq bu il burdadır,
Gələn il də sərasər.

### M ə s ə l l ə r:

Qonaq güclü olsa, ev yiyəsini evdən qovar.
Qonağa "get" deməzlər, altından palazı çəkərlər.
Qonağın ruzusu özündən qabaq gələr.
Qonaq qonağı sevməz, ev yiyəsi heç birini.



## ƏRİNCƏK İT

Qış olanda it deyir:
– Yaz olaydı, özümə bir çul toxuyaydım.
Elə ki yaz gəlir, it tənbəlləşib deyir:
– Eh, kim əyirib, kim toxuyacaq?!

### M ə s ə l l ə r:

Bu günün işini sabaha qoyma.
Qalan işə qar yağar.
Əldən qalan əlli il qalar.
Qorx payızdan, qabağından qış gəlir.
Qorxma qışdan, qabağından yaz gəlir.
Köpək itin qarnı tox gərək.

## TOYUQ

Bir gün bir toyuğu taxıl anbarına saldılar. Toyuq başladı buğdanı ayaqları ilə eşələyib yeməyə.

Dedilər:

– Bu qədər buğdanı niyə eşələyirsən?

Toyuq cavab verdi:

– Nə eləyim, kəsilmişlərim öyrənibdir, məndə nə günah var?

### Məsəllər:

Toyuq yumurtasına görə qaqqıldar.
Toyuq istər qaz yerişi yerisin, öz yerişini də itirər.
Toyuq su içər, Allaha baxar.

Ev quşları: toyuq, xoruz, ördək, qaz, tovuz, hindtoyuğu, göyərçin.

### Tapmacalar:

4. Qara toyuq qarğalar
   Evdən-evə yırğalar.
5. Qara toyuq
   Qarnı yarıq.

6. Tap tapmaca,
   Gəl tapmaca.
   Məməli xatun
   Dişləri yox.

7. Çil toyuq
   Çilmə toyuq
   Başını kəsdim,
   Qanı yox.

8. Ana bir qız doğdu.

   Nə əli var, nə ayağı.

9. Qız bir ana doğdu, əli də var, ayağı da.

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 75745

## QARI VƏ PİŞİK

Bir gün bir qarı inəyini apardı suvarmağa. İnək buzun üstündə sürüşüb yıxıldı və qıçı sındı. Onda qarı buza dedi:

– A buz, sən nə güclüsən?

Buz cavabında dedi:

– Əgər mən güclü olsaydım, gün məni əritməzdi.

Qarı dedi:

– A gün, sən nə güclüsən?

Gün cavabında dedi:

– Əgər mən güclü olsaydım, bulud qabağımı kəsməzdi.

Qarı dedi:

– A bulud, sən nə güclüsən?

Bulud dedi:

– Mən güclü olsaydım, yağış məndən yağmazdı!

Qarı dedi:

– A yağış, sən nə güclüsən?

Yağış dedi:

– Əgər mən güclü olsaydım, ot məndən bitməzdi.

Qarı dedi:

– A ot, sən nə güclüsən?

Ot dedi:

– Mən güclü olsaydım, qoyun məni yeməzdi!

Qarı dedi:

– A qoyun, sən nə güclüsən?

Qoyun dedi:
– Əgər mən güclü olsaydım, qurd məni yeməzdi!
Qarı dedi:
– A qurd, sən nə güclüsən?
Qurd dedi:
– Mən güclü olsaydım, it məni boğmazdı.
Qarı dedi:
– A it, sən nə güclüsən?
İt dedi:
– Mən güclü olsaydım, çoban məni döyməzdi.
Qarı dedi:
– A çoban, sən nə güclüsən?
Çoban dedi:
– Mən güclü olsaydım, xanım məni söyməzdi.
Qarı dedi:
– A xanım, sən nə güclüsən?
Xanım dedi:
– Əgər mən güclü olsaydım, siçan torbalarımı kəsməzdi.
Qarı dedi:
– A siçan, sən nə güclüsən?
Siçan dedi:
– Əgər mən güclü olsaydım, pişik məni yeməzdi!
Qarı dedi:
– A pişik, sən nə güclüsən?
Pişik iki əlini qabağa, iki ayağını dala qoyaraq gərdənini çəkdi, quyruğunu qalxızdı, gözlərini bərəldib dilini çıxarıb qarıya dedi:

Güclüyəm ha, güclüyəm,
Dəmir daraq dişliyəm.
Yük üstü yaylağımdır,
Yük altı qışlağımdır.
Kürsü üstə duraram,
Bığlarımı buraram...

**M ə s ə l:**

Siçan görəndə pələngə oxşayan pişik pələng görəndə siçana dönər.

**T a p m a c a:**

10. Taxçadan düşdü, tap elədi,
 Gülsənəm onu hap elədi.



## QOYUN

Yeyər-yeyər, gərnəşər,
Alnın vurar, döyüşər,
Buynuzu burma-burma,
Yunu var yerlə sürümə.
Zinhar[1] qoyunu vurma,
Qoyunsuz yerdə durma.
Qoyunlu evlər gördüm,
Qurulmuş yaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.
Qoyun deyər: "Mən heç otdan doymaram,
Payız oldu, çörün-çöpün qoymaram.
Hər bir evi yunum ilə bəzərəm:
Ağır-ağır xalılarım var mənim,
Güllü-güllü xalçalarım var mənim".

* * *

Nənəm a narış qoyun
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südü ver, barış, qoyun.

[1] Z i n h a r – çəkin, ehtiyatlı ol.

E v  h e y v a n l a r ı: at, eşşək, qatır, dəvə, inək, öküz, camış, kəl, qoyun, keçi, it, pişik.

## Məsəllər:

Qoyun yüz olunca dərisi min olar.

Qoyunun oldu əlli,
Adın oldu bəlli.
Qoyunun oldu yüz,
Gir, içində üz.

Qoyunu qurda tapşırmazlar.

## Tapmaca:

11. Altı hovuz içərlər,
Üstü zəmi biçərlər.

## ÜŞÜDÜM HA, ÜŞÜDÜM

Üşüdüm ha, üşüdüm.
Dağdan alma daşıdım,
Almacığımı aldılar,
Mənə cürm[1] verdilər.
Mən cürmdən bezaram.
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı bunun erkəci?
Erkəc qaya başında,
Hay elədim gəlmədi,
Çiyid verdim, yemədi.
Çiyid qazanda qaynar,
Qənbər bucaqda oynar.
Qənbər getdi oduna,
Qarğı atdı buduna.
Qarğı deyil, qamışdı,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi,
Darını səpdim quşa.
Quş mənə qanad verdi,
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.
Qapıçı qapı toxur,
İçində bülbül oxur.

### Məsəllər:

Qar yağıb ayaq üşütmək üçün.
Qış qışlığın yerdə eylər, göydə eləməz.
Buğda olmayan yerdə darını gözə təpərlər.

---

[1] C ü r m – əziyyət, əzab, zülm.

## KEÇİ

Nənəm a tatar[1] keçi,
Qayada yatar keçi.
Qış bərk soyuq gələndə,
Balanı atar keçi.
Nənəm a xallı keçi,
Məməsi ballı keçi.
Uca qaya başında,
Tutubdu yalı keçi.

Keçi deyər, adım Əbdülkərimdir,
Qavala çəkilən mənim dərimdir,
Üç ay qışı ölmərəm, Allah kərimdir.
Şeytan-şeytan balalarım var mənim,
Qəlbi-qəlbi qayalarım var mənim!

### Məsəllər:

Keçiyə qurd dəyməsə, həccə gedər.
Keçi handa, qaya handa...
Qoy keçinin ölümü palıddan olsun.
Keçi can hayında, qəssab piy qayğısında.
Keçinin qoturu bulağın gözündən su içər.

---

[1] T a t a r – cəld, zirək, çevik.

## İNƏK, ÖKÜZ, CAMIŞ

İnək deyər, mən doğanda mələrəm,
Ahım ilə dağı-daşı dələrəm.
Qurudumu gündən-günə sərərəm,
Yaxşı-yaxşı kərələrim var mənim,
Maral-maral balalarım var mənim!

Öküz deyər, mən ağama nökərəm,
Üç ay qışı tövləsində bikaram.
Yaz olanda çayır-çəmən sökərəm,
Ağlı-qırmızılı buğda əkərəm,
Ağır-ağır xırmanlarım var mənim,
Uca-uca tayalarım var mənim!

Kəl deyər, payız olcaq samanlığımı doldurun,
Yaz olanda boyunduruğumu yondurun.
Cütə getməsəm, vurun məni öldürün.
Dolu-dolu samanlığım var mənim.
Dərin-dərin dəryalarım var mənim.

### Məsəllər:

Pulunu ver inəyə
Bağla dirəyə,
Nəinki ver qoyuna,
Özünü sal oyuna.

Ahıl öküz cütə getməsə, uşaqlar acından qırılar.
Ev danasından öküz olmaz.
Öküzün cütə getməyəni ətlik adına satılar.
Camışla gəzən dananı qurd yeyər.

Şoran yerdə əgər bostan əkərsən,
Adı bostan olar, tağı tağ olmaz.
Tənbəl arvada yüz inək versən,
Ayranı bol olar, yağı yağ olmaz.

## Tapmaca:

12. O yanı çəpər,
bu yanı çəpər,
içində atlı çapar.

## EŞŞƏK VƏ DƏVƏ

Eşşək deyər, mən hamıdan fağıram,
Palçığa batanda dağdan ağıram.
Çöllərdə qalanda yiyəmi çağırram,
Kərənaydan yoğun səsim var mənim,
Atlar ilə böyük bəhsim var mənim!

Dəvə deyər, heç bir heyvan götürməz yükümü,
İgid oğlan gərək çəkə ipimi,
Ərəbistan içər mənim südümü,
Uzaq-uzaq mənzillərim var mənim,
Uca-uca dəyələrim var mənim!

### Məsəllər:

Eşşəyi min, ata çatıncan.
Eşşək eşşəyi borc qaşır.
Eşşəyə minmək bir ayıb, düşmək iki ayıb.
Boş eşşək yorğa gedər.
Dəvə oynayanda qar yağar.
Dəvə yaxını otlayıb uzağı gözlər.
Dəvə ölsə, dərisi bir yükdür; toyuq ölsə, dərisi bir çəngə tükdür.
Dəvəyə dedilər: boynun niyə əyridir?

Dedi: haram düzdür ki, boynum da düz ola?
Dəvəyə dedilər: sənətin nədir?
Dedi: xəyati[1] eşmək.
Dedilər: nazik dodaqlarından və zərif əl-ayağından görünür.

**T a p m a c a:**

13. Bəngi-bəngi başını tut,
Döngü-döngü döşünü tut,
Qılman qoca, əl-ayaq ver,
Hüseyn qoca quyruğun tut.

---

[1] X ə y a t i – ipək sap.



## BİŞMİŞLƏR, ÇÖRƏKLƏR VƏ İÇKİLƏR

B i ş m i ş l ə r: aş, bozbaş, plov, çilov, dolma, küftə, qovurma, bozartma, kabab, lüləkabab, əriştə, umac, xəşil, halva, həlimaşı, xingal, firni, qaysaba, dovğa, səməni halvası.

Ç ö r ə k l ə r: yuxa, sac çörəyi, təndir çörəyi, lavaş, səngək, fətir, şəkərçörəyi, qatlama, fəsəli, əyirdək, kətə, qoğal.

İ ç k i l ə r: su, süd, çay, qəhvə, şərbət, ayran, körəməz, gülməs, bulama.

Lavaş dedi:
– Heç kəs mənim yeddi qatımdan keçə bilməz.
Bu sözü bozbaş eşidib dedi:
– Nə deyirsən?!
Lavaş dedi:
– Səni dindirən yoxdu, bozbaş bəy!

### M ə s ə l l ə r:

Harada aşdır, orada başdır.
Bişmiş aşın darğası.
Aşı bişirən yağ olar, gəlinin üzü ağ olar.
Halva-halva deməklə ağız şirin olmaz.
Yağ yağ ilə qaynar, yarma quru qalar.

## ÇOBAN

Göydəki göy buludlar
Yorğanıdır çobanın.
Yastı-yastı təpələr
Yastığıdır çobanın.
Yumru-yumru qayalar
Yumruğudur çobanın.
Əlindəki dəyənək
Qalxanıdır çobanın.
Yanındakı boz köpək
Yoldaşıdır çobanın.
Ağzı qara canavar
Düşmənidir çobanın.

### Məsəllər:

Çobanın könlü olsa, təkədən pendir tutar.
Çobanı özündən olanın qoyunu dişi doğar.
Keçinin əcəli çatanda çobanın dəyənəyinə sürtüşər.
Gəlinin ayağı çobanın dayağıdır.
Kürdün qocalanı qoyuna gedər.

Çöl heyvanları: qurd, ayı, tülkü, çaqqal,
şir, pələng, dovşan, porsuq,
dələ, maral, ceyran.



## SƏMƏNİ

Səməniyə saldım badam,
Qoymazlar bir barmaq dadam.
Dörd tərəfin alıb adam,
Səməni, bizana gəlmişəm[1],
Uzana-uzana gəlmişəm.

### Tapmaca:

14. Suda Süleyman gördüm,
Dağda düleyman gördüm.
Yatar gövşər daş gördüm,
Duzsuz bişmiş aş gördüm.
15. Uzun qız oba gəzər.

### Yanıltmac:

Bazarda nə ucuz?
Mis ucuz, küncüt ucuz, duz ucuz.

---

[1] *Bizana gəlmişəm* – cana gəlmişəm, bezmişəm.

## QURD

Qurda dedilər:

– Gəl səni qoyuna yollayaq! – Başladı ağlamağa.

Dedilər:

– Daha niyə ağlayırsan?

Dedi:

– Qorxuram, yalan ola.

Qurddan soruşdular:

– Aranda qalacaqsan, yoxsa yaylağa gedəcəksən?

Qurd cavabında dedi:

– Mənimki el illədir. El haraya getsə, mən də oraya gedəcəyəm.

### Məsəllər:

Çaqqal var ki, gödən çıxardır, qurdun adı bədnamdır.

Qurddan qorxan qoyun saxlamaz.

Qurd nə bilir ki, qatır bahadır.

Qurd dumanlı gün axtarır.

### Tapmaca:

16. Səkkizi san darayı,
 Doqquzu don darayı,
 İkisi xas qırmızı
 Dördü mazan darayı.



## AĞ QOYUN

Nənəm qoyunun ağı,
Gedər dolanır dağı,
Biçər qara qiyağı,[1]
İçər sərin bulağı.

Qarılar tutar yağı,
Gəlin yeyər quymağı,
İlla ki qayğanağı,
Çobana vurar dağı.

Qızlara cehiz ağı,
Çobana çarıq bağı,
Uşağa şütük[2] bağı.

### Məsəllər:

Qoyun dediyin eşmə bağırsaqdır, dalısı heç üzülməz.
Qoyun deyir, məni çək xarabaya, səni çıxarım abadanlığa.

---

[1] Qara qiyaq – ot növü.
[2] Şütük – bələk bağı

## DÜZGÜ

Ustub idi, ha ustub idi,
O kişi mənim dostum idi.
Getdi Gilanə gəlmədi,
Yaylığımı aldı vermədi.
Yaylığımın ucu zil qara,
Yolladım peyğəmbərə.
Peyğəmbəri öldürdülər,
Ağ bala geydirdilər,
Ağ balanın saçaqları,
Gümüşdən var bıçaqları.
Vurdum sandıq açıldı,
İncili mərcan saçıldı.
İncili fərman filfili,
Gəl oxu bizim dili.
Bizim dil urum dili.

Urumdan gələn atlar,
Ağzında yüyən çatlar.
Heyvanın ağacları,
Bar gətirməz başları.
Vurdum başı üzüldü,
El yaylağa düzüldü.
El yaylaqdan gəlincə,
Yarı canım üzüldü.

A teşti, teşti, teşti,
Vurdum gülbi keçdi.
İki xoruz dalaşdı,
Biri qana bulaşdı.
Aftabanı vurdum daşa,
Su gəlir coşa-coşa,
Əli ilə Məhəmməd
Yazılıbdır bir daşa!

## Məsəllər:

Sən haqq ilə ol – haqq səninlə olar.
Əldən gedən ələ gəlməz.
Doğruya zaval yoxdur, çəkəsən hər divana.

## DƏVƏ VƏ TİKAN

Bir dəvə çöldə otlayırdı. Yarpaqlanmış tikan koluna yaxınlaşıb istədi onun yarpaqlarını yesin. Ağzını kola tərəf uzadanda gördü ki, onun içində bir ilan qıvrılıb yatıb. Dəvə tamah dişini ondan çəkib geri qayıtdı.

Kol belə xəyal elədi ki, dəvə onun tikanından qorxub çəkildi.

Dəvə kolun fikrini duyub dedi:

– Mənim qorxum səndən deyil, o gizlənmiş qonaqdandır.

### Məsəllər:

Köpək qaya kölgəsində yatar, elə bilər, öz kölgəsidir.
Dəvəçi ilə dost olanın darvazası gen gərək.
Dəvə gördünmü? – Qığını da görmədim.



## NAZİKBƏNAZİK-TAZİKBƏTAZİK

Biri var imiş, biri yox imiş, bircə birə varmış, adı Tazikbətazik, bir də bir bit var imiş, adı Nazikbənazik.

Tazikbətazik Allahın əmrilə Nazikbənaziyi özünə arvad almışdı.

Ay ötdü, il dolandı, qış gəldi, çoxlu qar yağdı.

Tazikbətazik arvadına dedi:

– Mən çıxım, damımızım qarını kürüyüm, sən də bir qazan umac bişir, yeyək, qarnımız qızsın.

Nazibənazik dedi:

– Yaxşı, olar.

Tazikbətazik çıxdı damın qarını kürəməyə, Nazikbənazik də ocaq qalayıb bir qazan umac asdı.

Tazikbətazik az kürəmişdi, çox kürəmişdi, birdən ayağı sürüşüb bacadan düşdü umac qazanının içinə və o saat da öldü. Bunu görəndə Nazikbənazik başına çırpdı, dizinə çırpdı. Haray hara çatar? Ölən bir də dirilməz ki!

Nazikbənaziyin başına döyüb ağlamağını sərçə görüb ondan soruşdu:

– Nazikbənazik, bu nədir, niyə ağlayırsan?

Nazikbənazik dedi ki, daha nə olacaqdır? Tazikbətazik damın qarını kürədiyi yerdə ayağı sürüşüb umac qazanının içinə düşüb öldü.

Bunu eşitcək sərçə də başına-gözünə döyə-döyə uçdu getdi.

Ona bir qarğa rast gəldi və soruşdu:

– Sərçeyi-cükcük, bu nədir?

Sərçeyi-cükcük cavab verdi ki:

– Sərçeyi-cükcük neyləsin? Nazikbənazik deyir, Tazikbətazik qar kürədiyi yerdə bacadan umac qazanına düşüb ölübdür.

Qarğa bu sözü eşidəndə çox bikef olub, uçdu, qondu çinar ağacına. Çinar onun bikef olduğunu görüb soruşdu:

– Qarğeyi-qırqır, bu nədir?

– Qarğeyi-qırqır neyləsin? Sərçeyi-cükcük deyir ki, Nazikbənazik deyir, Tazikbətazik qar kürəyəndə bacadan umac qazanına düşüb ölübdür.

Bu xəbəri eşidəndə çinar da çox bikef oldu. Yanından dəvə keçib gedəndə onun bikef olduğunu görüb soruşdu:

– Çinarbəçinar, bu nədir?

Çinar cavabında dedi ki:

– Çinarbəçinar neyləsin? Qarğeyi-qırqır deyir ki, sərçeyi-cükcük deyir ki, Nazikbənazik deyir ki, Tazikbətazik ölübdür.

Bu pis xəbəri eşidəndə dəvə bikef olub başladı getməyə. Onun qabağına suya gedən bir qarı çıxdı. Qarı dəvənin belə damaqsız olmağını görüb ondan soruşdu:

– Dəveyi-löklök, bu nədir?

Dəvə cavab verdi ki:

– Dəveyi-löklök neyləsin? Çinarbəçinar deyir ki, Qarğeyi-qırqır deyir ki, Sərçeyi-cükcük deyir ki, Nazikbənazik deyir ki, Tazikbətazik ölübdür.

Bu yaman xəbəri eşidən kimi qarı da vurub səhəngini sındırdı. Elə ki bulağın başına gəldi, bulaq qarının sınmış səhəngini və bikefliyini gördü, ondan soruşdu:

– Vurub-sındıran, bu nədir?

Qarı cavab verdi:

– Vurub-sındıran neyləsin? Dəveyi-löklök deyir ki, Çinarbəçinar deyir ki, Qarğeyi-qırqır deyir ki, Sərçeyi-cükcük deyir ki, Nazikbənazik deyir ki, Tazikbətazik dama çıxıb qar kürədiyi yerdə ayağı sürüşüb, bacadan umac qazanının içinə düşüb ölübdür.

Bulaq da bu xəbəri eşidəndə çox qüssə elədi və qüssədən onun suyu qurudu.

İndi də bulağın suyu axmır.

## Məsəllər:

Ata olmayan ata qədrini bilməz.

Anası çıxan ağacı qızı budaq-budaq gəzər.

Qırağına bax – bezini al, anasına bax – qızını al.

Ata oğula bağ qıydı, oğul ataya salxım qıymadı.

Oğul atanın kövşənini əkər.

Qız yükü, duz yükü.

Qız idim, sultan idim,
Nişanlandım, xan oldum,
Gəlin oldum, qul oldum.
Ayaqlara çul oldum.

Qız, sənə deyirəm, gəlinim, sən eşit.

Kürəkən – kül əkən.

Birənin qanını aldın, canını aldın.

## LAYLALAR

Bizim yerlər qalın meşə,
Taxtında otur həmişə,
Aranında gül bitsin,
Yaylağında bənövşə.

Balam, layla, a layla!
Gülüm, layla, a layla!

Layla dedim ucadan,
Ünüm çıxdı bacadan,
Səni Tanrı saxlasın
Çiçəkdən, qızılcadan.

Balam, layla, a layla!
Gülüm, layla, a layla!

Layla dedim yatınca,
Gözlərəm ay batınca,
Canım zinhara gəldi
Sən hasilə çatınca.

Balam, layla, a layla!
Gülüm, layla, a layla!

Layla dedim adına,
Haqq yetişsin dadına,
Hər layla eşidəndə,
Balam düşər yadıma.

Balam, layla, a layla!
Gülüm, layla, a layla!

Dağlara sərin düşər,
Kölgəsi sərin düşər,
Hər vaxt layla deyəndə
Yadıma Pərim düşər.

Balam, layla, a layla!
Gülüm, layla, a layla!

Layla beşiyim, layla,
Evim-eşiyim, layla.
Sən yat, yuxun alginən
Çəkim keşiyin layla!

Balam, layla, a layla!
Gülüm, layla, a layla!

Layla dedim, yatasan,
Qızılgülə batasan.
Qızılgül bağın olsun,
Kölgəsində yatasan.

Balam, layla, a layla!
Gülüm, layla, a layla!

Layla dedim, yatasan,
Qızılgülə batasan.
Qızılgülün içində
Şirin yuxu tapasan.

Balam, layla, a layla!
Gülüm, layla, a layla!

## BALA BARƏSİNDƏ

Mən aşiqəm, balasın,
Laçın verməz balasın.
Mən balamı istərəm,
Balam istər balasın.

## QARDAŞ BARƏSİNDƏ

Mən aşiq, qardaşa düşər,
Qar yağar, qar daşa düşər.
Qardaşın müşkül işi,
Yenə qardaşa düşər.

## GƏLİNİN SÖZLƏRİ

Baldızım – çuval bizim,
Dəm-dəm batar, mən neyləyim,
Qaynanam dəmir darağı,
Dığladar ötər, mən neyləyim.
Qayınatam – sərv ağacı,
Qapıda bitər, mən neyləyim,
Qayınım – gül yarpağı,
Xatirim tutar, mən neyləyim.

## QAYINANANIN SÖZLƏRİ

Q a y ı n a n a   d e y ə r:

Payız günündə qızım otursun, oğlu qucağında,
Yaz günündə gəlinim otursun, qızı qucağında.

## YAZ

Novruz bahar oldu, cahan tazə-tər oldu,
Rəf oldu ələmlər,
Dağıldı bu şadlıq xəbəri dərbədər oldu,
Yandı oda qəmlər.
Göydən yerə yağdı nə gözəl şəbnəm rəhmət,
Bitdi gülü-lalə,
Xoş nəğmələnib bülbüli-şeyda ötər oldu,
Açıldı irmələr.

İ l i n f ə s i l l ə r i: yaz, yay, payız, qış.

G ü n l ə r i n a d l a r ı: cümə, şənbə, bazar,
bazar ertəsi, tək (xas)[1],
çahar-şənbə[2],
cümə axşamı (adına).

### T a p m a c a:

17. Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır.
Üçü yığar, gətirər,
Üçü vurar, dağıdar.

---

[1] T ə k (x a s) – çərşənbə axşamı.
[2] Ç a h a r-ş ə n b ə – çərşənbə.



## GÜNƏŞİ ÇAĞIRMAQ

Gün çıx, çıx, çıx!
Kəhər atı min, çıx!
Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü,
Keçəl qızı qoy evdə,
Saçlı qızı götür, çıx!
Gün getdi su içməyə,
Qırmızı don biçməyə.
Gün çıxıbdı yetirəcək.
Qarı yerdən götürəcək,
Keçəl qızı gətirəcək,
Saçlı qızı gətirəcək,
Duman, qaç, qaç, qaç!
Səni qayadan asarlar!
Buduna damğa basarlar!
Gün getdi dağ başına,
Könlü şamama istəyən
Dolansın tağ başına.

## QIZLAR NƏĞMƏSİ

Əlimi bıçaq kəsibdi.
Dəstə bıçaq kəsibdi.
Yağ gətirin, yağlıyaq,
Bal gətirin, ballıyaq,
Dəsmal verin, bağlıyaq,
Dəsmal dəvə boyunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzəydim,
Tellərimə düzəydim.
Qardaşımın toyunda
Oturub-durub süzəydim.
Çay daşıbdır, lil gəlir.
Dəstə-dəstə gül gəlir.
O gülün birin üzəydim,
Saç bağıma düzəydim.
Saç bağım qatar-qatar,
Üstündə qardaş yatar.
Qardaşın əl yaylığı,
Ucları zər yaylığı.
Hərə bir ağız desin
Qardaşa cansağlığı.
Hop-hopun olsun, qardaş!
Gül topun olsun, qardaş!
Gül ağacın dibində,

Gülbünün[1] olsun, qardaş!
Dəyirman üstü çiçək,
Oraq gətir, gəl biçək
Qardaş, nişanlın gördüm,
Uzunboy, qarabirçək.

## Məsəllər:

Can versən, qardaşa ver, min il getsə, yad olmaz.
Yaxşı gündə yad qonşu, yaman gündə vay qardaş.
Qızın oldu, qırmızı donunu çıxar.

Qız idim,
Geydirdilər zövqü-səfa köynəyini.
Nişanlandım,
Geydirdilər şövqü-səfa köynəyini.
Gəlin oldum,
Geydirdilər cövrü-cəfa köynəyini.

## Tapmaca:

18. Biz-biz idik,
Yüz qız idik.
Bizi üzdülər,
İpə düzdülər.

[1] G ü l b ü n – toyun axırıncı günü qızlar və gəlinlər yığılıb şadlıq edirlər və sonra evlərinə dağılırlar.

## BOSTAN VƏ DİRRİK MƏHSULATI

Yemiş (qovun), qarpız, şamama, xiyar, qabaq, kələm, kök, soğan, sarımsaq, turp.

S ə b z i y y a t: Keşniş, cəfəri, kərəviz, bağdanus[1], kəvər, nanə, şüyüd, reyhan, mərzə, razyana, acıtərə, ispanaq.

### M ə s ə l l ə r:

Soğan yeməmisən, için niyə göynəyir?
Atan – soğan, anan – sarımsaq, sən hardan oldun gülməşəkər?

### T a p m a c a l a r:

19. Bir damım var, içi dolu adam, amma qapısı yox.
Bir damım var, təndir gülü.
Çatı su içər, dana köpər.
Yemişlər də yarpaqsız,
Tap görüm, necə yemişdir?

---

[1] B a ğ d a n u s – göy-göyərti.

## TÜLKÜ VƏ ÜZÜM

Bir günü tülkü qağa
Gəlib girdi bir bağa.
Dolandı sola keçdi,
Dolandı sağa keçdi.
Gördü üzüm sulanır,
Yüz cürə rəngə çalır.
Dəyibdi kəhrəbatək,
Sallanıbdır, saralır.

Tülküciyəz dayandı,
Baxdı, ağzı sulandı.
Dişi alışma tutdu,
Dodağı, dili yandı.

Düz bir saat dayandı,
Quyruq üstə dolandı.
Üzüm ucada idi,
Əl çatmadı, usandı.

Acıqlanmış qayıtdı,
O yerə çölə getdi.
Uzaqlaşıb özünə
Belə təsəlli etdi:

Doğrudur mənim sözüm,
Dəyməyibdir o üzüm,
Yesəm, dişim qamaşar,
Yemədim onu özüm.

**(İ.A.Krılovdan tərcümə)**

## Məsəllər:

Pişiyin əli ətə çatmaz, deyər, qoxuyubdur.
Ayı meşədən küsüb, meşənin xəbəri yoxdur.
Aclıq adama oyun öyrədər.
Ac gəzib tox sallanır.
Acam – quyruq acıyam, bağır-öfgə acı deyiləm.

## Tapmaca:

20. İki tülkü balası, üç anası, dörd atası, neçə eylər hamısı?

## Yanıltmac:

Ay qılquyruq qırqovul, gəl bu kola gir, qılquyruq qırqovul.



## BUĞDA, ARPA VƏ DARI

Bir gün buğda, arpa və darı bir-biriylə söhbət edirdilər.

Buğda dedi:

– Mənim bir tikəm bir dağı aşırır.

Arpa dedi:

– Mənim də bir tikəm dağın yarısına kimi çıxardır, amma aşırmağına zamin ola bilmərəm.

Darı da dedi:

– Mən xalqın uşağının qanına bais ola bilmərəm ki, evindən çıxardıb borana salam, öldürəm. Məndə o qüvvət yoxdur.

## DARI VƏ BUĞDA

### Darı

Mənə darıcan deyərlər,
Yağ, bai ilə yeyərlər.
Ehtiyatla götürüb,
Güclə saca yetirərlər.

### Buğda

Yastı-yastı yatarsan,
Kol dibində bitərsən.
Məndən sənə qarışmasa,
Palıddan da betərsən!

T a x ı l: buğda, arpa, darı, qarğıdalı, çəltik, pərnic, küncüt, şahdana.

## M ə s ə l l ə r:

Arpadan, buğdadan əlim üzüldü, ümidim sənə qaldı, darı xirməni.
Bildirçinin bəyliyi darı solanacandır.
Darıya girən donuz payanı özünə qəbul eylər.
Kiş-kiş ilə donuz darıdan çıxmaz.

## T a p m a c a l a r:

21. Ağac başında darı quyusu.

22. Ağac başında sarı yumaq.

23. Havalar, ha havalar,
Çöldə dovşan balalar.
Dırnağından su içər,
Dimdiyindən balalar.

24. Sarı saqqal, uzun hoqqar,
Onu tapmayan olsun çaqqal.

25. Bir bölük atlar,
Çəməndə otlar.
Vaxtı gələndə
Dimdiyi çatlar.

## TÜLKÜNÜN HEKAYƏTİ

Bir kişinin maldan-dövlətdən ancaq bir neçə toyuq-cücəsi var idi.

Bir tülkü bunlara dadanıb gecədə birini aparıb yeyərmiş. Axırda kişinin bircə toyuğu qalır.

Kişi gecə yatmayıb pusquda oturur ki, görsün, toyuqları aparan kimdir?

Gecənin bir vaxtı tülkü xəlvətcə gəlir ki, o qalmış toyuğu da aparıb yesin.

Tülkü toyuq damına girəndə kişi tez qapıları bağlayıb, arvadını yuxudan oyadır və ikisi köməkləşib tülkünü tuturlar.

Kişinin ürəyi çox yanmışdı və tülküdə acığı var idi. Ona görə tülkünün yediyi toyuq-cücəni bir-bir yadına salıb bu sözləri oxuya-oxuya onu döyür:

Qaya başında durarsan,
Sarı bığını burarsan,
On beş cücəmi qırarsan.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Tülkü, quyruğun aladır,
Qayalar sənə qaladır.
Tazı başına bəladır.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Əlimə aldım kürəyi,
Yoxladım damı-dirəyi,
Qopdu tülkünün ürəyi.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Arvad, götür yarmaçanı,
Qoyma deşikdən qaçanı.
Neylədin xoruz-beçəni?!

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Təndirə qoydum noxudu,
Dərdim ürəkdə çox idi,
Yoxladım, fərəm yox idi.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!

Gecə pusquda yataram,
Yuxuma haram qataram,
Dərini baha sataram.

Tülkü, səfa gördüm səni,
Nə yazıq tanıdın məni?!



## DÜZGÜ

Beşdi-beşdi ha beşdi,
Ağacdan alma düşdü.
Almanın yanı zədə,
Zədəni yeməz gədə.
Çoban çöldə gəzirdi,
Davarların düzürdü.
Çoban qoyuna gedər,
Köpəyi adam didər.
Qabağında beş keçi,
Hanı bunun erkəci?
Erkəc qazanda qaynar,
Qənbər bucaqda oynar.
Bu iş gecə nə işdi,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı sata.
Darını səpdim yerə,
Yerdə bitib göyərə.
Yerdən darı göyərdi,
Biçinçi gəldi dərdi.
Biçinçi Həzrətqulu,
Cibində vardır pulu.
Həzrətqulu bənnadı,
Arvadını danladı.
Arvadı Cahan banı –
Bunun çarşabı hanı?

Çarşabı cırılıbdı.
Qolbağı qırılıbdı.
Cahan gedib hamama
Çarşabını yamama.
Hamamın suyu isti
İsti su da nə pisdi!
Telpəri onun qızı,
Paltarı qıpqırmızı,
Oğlunun adı Xıdır,
Əlindəki dəhrədir.
Xıdır bəyin dəhrəsi,
Telpərinin çöhrəsi
Cəhrə demə, əsasdı,
Dəhrə demə, almasdı,
Telpəri yunu darar,
Xıdır bəy odun yarar.

## ŞƏNGÜLÜM, ŞÜNGÜLÜM, MƏNGÜLÜM

Biri var imiş, biri yox imiş, Allahdan başqa heç kəs yox imiş. Bircə keçi var imiş, bu keçinin də üççə balası. Birinin adı Şəngülüm, birinin adı Şüngülüm, birinin də adı Məngülüm.

Bu keçi hər gün gedib meşədə və çöldə otlarmış. Balaları da qapıları bağlayıb evdə oturarlarmış. Keçi otlamaqdan qayıdanda qapının dalından çağırarmış:

Şəngülüm, Şüngülüm, Məngülüm!
Açın qapını, mən gəlim!
Ağzımda su gətirmişəm,
Döşümdə süd gətirmişəm,
Buynuzumda ot gətirmişəm.

Bunu eşidən kimi balaları sevinib tez qapını açarlarmış və anaları onları doyuzdurub yenə gedərmiş çölə-bayıra otlamağa.

Bir gün keçi getcək qurd gəlib durur qapının dalında və başlayır çağırmağa:

Şəngülüm, Şüngülüm, Məngülüm!
Açın qapını, mən gəlim!
Ağzımda su gətirmişəm,
Döşümdə süd gətirmişəm,
Buynuzumda ot gətirmişəm.

Balaları elə bildi ki, bunları çağıran analarıdır. Cəld qapını açdılar.

Qurd içəri girib Şəngülüm və Şüngülümü tutub yedi, amma Məngülüm qaçıb evin küncündə gizləndi. Qurd onu görmədi.

Keçi düzü, çəməni otlayıb qayıtdı evinə və həmin sözlər ilə başladı uşaqlarını çağırmağa. Amma içəridən bir kəs ona cavab vermədi. Neçə dəfə "Şəngülüm, Şüngülüm" deyib çağırdısa da, ona cavab verən olmadı və qapı açılmadı. Axırda özü qapını sındırıb girdi evə. O yana-bu yana baxdı, balalarının heç birini görmədi. Axırda qaranlıq küncün birində Məngülümü gördü.

Başlarına gələni Məngülüm anasına nağıl elədi. Onda keçi çıxdı dovşanın damının üstünə və ayaqları ilə damı döydü.

Dovşan içəridən çığırdı:

– O kimdir?

Keçi cavab verdi ki, mənəm, balalarımı sənmi yemisən?

Dovşan cavab verdi ki, yox, mən yeməmişəm, get tülküdən xəbər al.

Keçi getdi çıxdı tülkünün damının üstünə və başladı ayaqları ilə döyməyə. Tülkü içəridən çığırdi:

– O kimdir, mənim damımın üstə çıxıb?!

Keçi dedi:

– Mənim balalarımı sənmi yemisən?

Tülkü cavab verdi:

– Yox, mən yeməmişəm, get qurddan soruş.

Keçi getdi çıxdı qurdun damının üstünə. Bu vaxt qurd da bir qazan aş asmışdı, ocağın üstə bişirirdi. Keçi damı

döyəndə bunun aşının içinə torpaq töküldü. Onda qurd çığırdı:

O kimdir damım üstə,
Toz tökər şamım üstə?
Aşımı şor eylədi,
Gözümü kor eylədi?

Keçi cavab verdi:

Mənəm, mənəm, mən paşa,
Buynuzum qoşa-qoşa.
Çıx eşiyə, savaşa!

Qurd çölə çıxdı ki, görsün, nə var.

Keçi dedi:

– Sən mənim balalarımı yemisən, gəlmişəm səninlə savaşam.

Qurd istədi ki, boynundan atsın, amma ata bilmədi və keçi ilə şərt qoydular ki, hər ikisi bir yerdə gedib qazıya şikayət eləsinlər.

Keçi getdi evinə, bir kasa qatıq çaldı və bir dəstərxan yağlı çörək bişirdi ki, qazıya sovqat aparsın.

Qurd da bir dağarcığın içinə 3-4 noxud ləpəsi saldı, üfürüb içini yel ilə doldurdu və sonra ağzını bərk bağlayıb özü ilə gətirdi. Gəldilər qazının hüzuruna.

Qazı keçinin sovqatına açıb baxdı və çox xoşhal oldu. Sonra qurdun dağarcığını açdı. Noxudun biri sıçrayıb qazının bir gözünü çıxartdı. Qazı işi belə kəsdi ki, keçi ilə qurd gərək savaşsınlar və qurda da bir buynuz qayrılsın.

Qazı keçinin buynuzunu daha da iti elədi. Amma qurda da çürük ağacdan bir buynuz qayırdı. Keçi ilə qurd başladı dalaşmağa. Bir-iki dəfə vuruşandan sonra qurdun buynuzu sındı və keçi vurub onun qarnını yırtdı.

Qurd bağırdı:

– Vay bağırsağım, vay.

Keçi cavabında dedi:

– Şəngülümü, Şüngülümü yeməyəydin!
Vay bağırsağım deməyəydin!

## Məsəllər:

Keçi suyu bağıra-bağıra keçər.
Qurd tutduğu yerdən qanıq olur.
Qurdun adı bədnamdır, yesə də, yeməsə də.
Qurd yuvasından sümük əskik olmaz.
Buynuzsuz qoçun qisasını buynuzlu qoçda qoymazlar.

## Tapmacalar:

26. Bizim evdə bir kişi var, aşın içindən
noxudun seçər.
27. Bizim evdə bir kişi var,
Köndələn yatışı var.
28. Bizim evdə bir kişi var,
Nənəm ilə işi var.



## GÜDÜ-GÜDÜ[1]

Çox yağıntı olanda və gün çıxmayanda uşaqlar çömçəni gəlin kimi bəzəyib qapı-qapı gəzdirir və aşağıda yazılan sözləri oxuyub, hər evdən bir qaşıq yağ və bir ovuc un yığır, fəsəli bişirib yeyirlər. Oxunan sözlər bunlardır:

Güdü-güdü ha, güdü-güdü!
Güdü-güdünü gördünüzmü,
Güdüyə salam verdinizmi?
Güdü burdan ötəndə
Qırmızı günü gördünüzmü?

Güdü palçığa batmışdı,
Qarmaladım götürdüm.
Qızıl qaya dibindən
Qırmızı gün götürdüm.

Qara toyuq qanadı
Kim vurdu, kim sanadı?
Göyçəliyə getmişdim
İt baldırım daladı.

Yağ verin yağlamağa,
İp verin bağlamağa.
Verənin oğlu olsun.

---

[1] Azərbaycanın bəzi yerlərində "Güdü-güdü" əvəzinə "Qodu-qodu", "Düdü-düdü" də deyilir.

Verməyənin qızı olsun.
Bir gözü də kor olsun.
Təndirə düşsün.
Qırmızı bişsin!

## Məsəllər:

Yağışdan çıxdım, yağmura düşdüm.
İslanmışın sudan nə qorxusu.
Göydən nə yağdı ki, yer onu qəbul etmədi.

## Tapmacalar:

29. O nədir ki, göydən yerə sallanır?
30. O nədir ki, hər nə desən, allanır?
31. O nədir ki, göbəyindən nallanır?
32. Min-min minara.
    Dibi qara,
    Yüz min çiçək
    Bir yarpaq?
33. Dəryada bir gül bitib, adı yox,
    Şirinlikdən yemək olmaz, dadı yox.

## VUR NAĞARA, ÇIX QIRAĞA

(Oyun sözləri)

İynə-iynə,
Ucu düymə,
Bal ballıca,
Ballı keçi,
Şam ağacı,
Şatır keçi,
Qoz ağacı, qotur keçi.
Hoppan,
Huppan,
Qırıl.
Yırtıl,
Su iç –
Qurtul.
Əmim oğlu,
Uzunbığlı,
"Haldırım" dedi,
"Huldurum" dedi,
Göyə bir ağac atdı.
Qarğı sapı
Gül budağı,
Motal-motal,
Tərsə motal,
Ellər atar,
Qaymaq qatar.

Ağ quşum – ağar çinim,
Göy quşum – göyərçinim,
Vur nağara,
Çıx qırağa.

Yuxarıda yazılan sözləri uşaqlar oyunu icra edərkən deyirlər. Xırdaca uşaqlar dövrə vurub oturur, ayaqlarını bir yerə uzadırlar. Onların biri başlayır bu sözləri oxumağa. Hər kəlməni deyəndə əlini növbə ilə yoldaşlarının və özünün ayağının üstünə qoyur.

Mətnin sonundakı "çıx qırağa" sözləri hər kəsin ayağının üstünə deyilsə, o, ayağını çəkir. Sonra yenə başdan həmin sözlər oxunur və uşaqlar bir-bir ayaqlarını çəkirlər. Hər kimin ayağı axıra qalsa, onu üzü üstə uzadır, əllərini yumruq tutub bir-birinin üstə onun arxasına qoyub soruşurlar:

– Əl üstə kimin əli?

Hərgah tapsa, onu durğuzurlar, tapmasa, "götürün vurun, yalandır!" deyib, onu bir neçə dəfə astaca vururlar və yenə soruşurlar:

– Əl üstə kimin əli?

Uşaq tapanadək onu astaca yumruqlayırlar.

**Tapmaca:**

34. Kitab kitab içində,
Atlas da qab içində,
Nə molla bilir, nə axund,
O da bir qab içində.

## TÜLKÜ VƏ KƏKLİK

Bir kəklik dağ başında oxuyurdu. Tülkü onun səsini eşidib yanına gəldi və dedi:

– Ay kəklik, sən ki belə gözəl quşsan və belə gözəl səsin var, elə həmişə oxuyursan? Bəs sən heç yuxulayıb yatmırsan?

Kəklik dedi:

– Niyə yatmıram, əlbəttə ki, yatıram!

Tülkü dedi:

– İndi ki belədir, bir mənə göstər görüm, sən necə yatırsan?

Kəklik yatmağını tülküyə göstərmək üçün gözlərini yumdu, tülkü cəld sıçrayıb onu tutdu.

Kəklik gördü ki, tülkü onu aldadırmış. Axmaqlıq edib onun hiyləsinə inanıbdır. İndi tülkü onu yeyəcək. Başını tülkünün ağzından çıxarıb dedi:

– Ay tülkü baba, sən ki belə zirək heyvansan və belə cəld şikar tutursan, heç şikarı yeyəndə Allaha şükür edirsən?

Tülkü cavab verdi:

– Necə ki eləmirəm, yaxşı eləyirəm.

Onda kəklik dedi:

– İndi tutaq ki, sən məni yeyibsən, bir Allaha şükür elə görüm, nə sayaq edirsən?

Tülkü ağzını açdı ki, şükür eləsin, kəklik bu anda uçub qondu bir qayanın üstünə.

Tülkü vəziyyəti belə görüb dedi:

– Kəklik qardaş, sən ki mənim ağzımdan qurtardın, get, amma lənət gəlsin o adama ki, şikarını yeməmiş Allaha şükür edə!

Kəklik cavabında dedi:

– Yaxşı deyirsən, tülkü baba, o adama da lənət gəlsin ki, yuxusu gəlməmiş gözlərini yumub yatmaq istəyə!

### Məsəllər:

Tülkü tülkülüyünü sübut edincə, dərisini boğazından çıxardarlar.

Dərə xəlvət, tülkü bəy.

Tülkü tülküyə buyurar, tülkü də quyruğuna.

### Tapmaca:

35. Bir dərədə yeddi təpə,
Hər təpədə yeddi dəlmək.
Hər dəlməkdə yeddi tülkü,
Hər tülkünün yeddi balası.
Eylər neçə hamısı?

### Yanıltmac:

Getdim gördüm bir dərədə iki kar, kor, kürkü yırtıq kirpi var. Dişi kar, kor, kürkü yırtıq kirpi erkək kar, kor, kürkü yırtıq kirpinin kürkünü yamamaqdansa, erkək kar, kor, kürkü yırtıq kirpi dişi kar, kor, kürkü yırtıq kirpinin kürkünü yamayır.



## PISPISA XANIM VƏ SİÇAN BƏY

(Dozanqurdu Düzxatun və Siçan Solub bəy)

Biri var imiş, biri yox imiş, Allahdan başqa heç kəs yox imiş. Bir də bir Pıspısa xanım var imiş.

Bir gün bu Pıspısa xanımın könlünə ərə getmək düşdü. Geyindi-kecindi, bəzəndi-düzəndi, öz evinin qapısına çıxdı və dedi:

– Ərə gedirəm, ərə gedirəm, ər olmasa, gora gedirəm!

Bir odunçu gəlib keçəndə Pıspısa xanımı görüb dedi:

– Mənə gələrsənmi?

Pıspısa xanım dedi:

– Məni döyəndə nə ilə döyərsən?

Odunçu dedi:

– Balta ilə vuraram, əzilərsən.

Pıspısa xanım dedi:

– Yeri, yeri, mən sənin tayın deyiləm.

Odunçu getdi. Pıspısa xanım yenə başladı:

– Ərə gedirəm, ərə gedirəm, ər olmasa, gora gedirəm!

Bir də gördü ki, kürəkçi gəlir. Kürəkçi dedi:

– Pıspısa xanım, mənə gələrsənmi?

Pıspısa xanim dedi:

– Məni döyəndə nə ilə döyərsən?

Kürəkçi dedi:

– Bir kürək çalaram, xıncım-xıncım olarsan!

Pıspısa xanım dedi:

– Yeri, yeri, mən sənin tayın deyiləm.

Kürəkçi də getdi.

Yenə Pıspısa xanım dedi:

– Ərə gedirəm, ərə gedirəm, ər olmasa, gora gedirəm!

Bu halda siçan oradan keçirdi. Gördü, Pıspısa xanım bəzənib-düzənib, geyinib-kecinib, özünə zinət verib, evin qapısına çıxıb.

Qara xaradan don geyib əyninə,
Ucunu qatlayıb salıb çiyninə,
Tökübdür üzünə qara tellərin,
Yuyub tərtəmiz, ap-arı əllərin.
Çəkib gözlərinə qara sürmələr,
Salıb başına əbrələr, tirmələr,
Xuraman-xuraman ki rəftar edir,
O rəftara sərvi-giriftar edir.
Soluna baxır, gah baxır sağına,
Baxır gah qolundakı qolbağına.
Durub hər yana o baxır naz ilə,
Deyir bu sözü xoş bir avaz ilə:
Gedirəm ərə, mən gedirəm ərə.
Ər olmasa, axır gedirəm gora.

Siçan Solub bəy gəldi Pıspısa xanımın yanına, dedi:

– Salam-əleyk, Dozanqurdu Düzxatun, Pıspısa xanım, sevgili canım, ruhi-rəvanım, canü-cananım, tabu-təvanım! Kefin, halın? Həmişə beləcə kefdə, gəzməkdə, seyri-səfada olasan!

Dozanqurdu Düzxatun gözünün altınca Siçan Solub bəyə baxıb gördü, amma nə Siçan Solub bəy!

Geyinib əyninə cübbə səncabdan,
Bəzənib-düzənibdi hər babdan.
Atıb dalına quyruğun şir kimi,
Qulaqlarını dik tutub, tir kimi.
Gəlir küylə, heç bilmirsən, kimdi bu,
Ki, hansı vilayətdə hakimdi bu.
Yuvadan çıxıb naz ilə yol gedir,
Gah sağ gedir yolda, gah sol gedir,
Döş ağ, gözü qara, arxası da boz.
Dişi incitək, ağzına yoxdur söz.
Qara gözlərini süzdürür hər yana,
Çəkir burnunu ki, iy-miy qana.

Dozanqurdu Düzxatun dedi:

– Ay əleykəssalam. Siçan Solub bəy, top qara birçək, yerişdə ördək, dişləri mixək, qıçları dirək, hamıdan göyçək, dəxi nə demək? Halın, kefin kökdümü? Damağın çağdımı, canın-başın sağdımı?!

Siçan Solub bəy dedi:

– Sağ ol, Pıspısa xanım, əzizim-canım, mənə gələrsənmi?

Pıspısa dedi:

– Məni döyəndə nə ilə döyərsən?

Siçan Solub bəy dedi:

– Səni döymərəm, döysəm də, quyruğumu molçi eylərəm, batıraram xanımların sürmədanına, gözünə sürmə çəkərəm.

Dozanqurdu Düzxatun dedi ki, sənə gedərəm. Razı oldular. Toy elədilər. Pıspısa xanımı Siçan Solub bəy aldı, apardı evinə. Bir zaman yaxşıca yeyib-içib kef elədilər.

Bir gün Siçan Solub bəy Pıspısa xanıma dedi:

– Sən evdə otur, mən gedirəm şah evinə, sənə noğul-nabat, şirni və hər cürə həlviyyat gətirim. Qoy yanına, könlün istədikcə at ağzına, xırıldat, ye.

Dozanqurdu Düzxatun dedi:

– Get, amma tez gəl. Sənsiz damın altında tək otura bilmirəm, qorxuram.

Siçan Solub bəy dedi:

– Qorxma, tez gələrəm!

Pıspısa xanım oturdu, oturdu, qərarı tutmadı. Fikirləşdi ki, Siçan Solub bəy gəlincə durub onun paltarlarını aparıb, dəvəizi dərin göldə yuyum, sərim, qurudum, gələndə verim geysin əyninə ki, üst-başı təmiz olsun.

Siçan Solub bəyin paltarını götürüb apardı yumağa. Amma yuyanda ayağı sürüşüb düşdü dəvəizi dərin gölə.

Sağa dolandı, gurp düşdü, sola dolandı, şarp düşdü, nə qədər əlləşdisə, çıxa bilmədi, hər nə qədər çapaladısa, qurtara bilmədi. Dəvəizi dərin göldə az qaldı, çox qaldı, gördü ki, bir neçə atlı gedir. Durdu çağırmağa:

Tapur-tupur atlılar,<br>
Qolları bazbatdılar[1].<br>
Şah evinə gedərsiz,<br>
Siçan bəyə deyərsiz:<br>
Pıspısa Püstə xanım,<br>
Dabanı xəstə xanım<br>
Düşüb dəvə gölünə,<br>
Boğulur xəstə xanım.

---

[1] "Bazubənd" (qolbaq) deməkdir.

Gəlib gördülər ki, bunları çağıran bir dozanqurdudur, düşübdür dəvəizi dərin gölə, boğulur. Bunları görəndə Dozanqurdu Düzxatun dedi:

Gedin deyin Siçan bəyə,
Börkü dəlik Solub bəyə:
Saçı uzun, saray xanım,
Donu uzun, daray xanım.

Dozanqurdu Düzxatun paltar yuduğu yerdə sürüşüb dəvəizi dərin gölə, boğulub ölür, durmasın, özünü mənə tez yetirsin!

Atlılar çox təəccüb edib, getdilər şah evinə. Gördüklərini orada nağıl elədilər. Siçan Solub bəy şirni sandığının içində gəzirdi, bu xəbəri eşidib qaçdı və tez özünü Pıspısa xanıma yetirdi. Gəldi gördü ki, Pıspısa xanım dəvəizi dərin göldə batır, çıxır. Az qalıb ki, canı çıxsın. Cəld əlini uzadıb dedi:

– Əlini mənə cik-ərəcik!

Dozanqurdu dedi:

– Yeri, mənciyəz səndən küsərəcik!

Siçan Solub bəy yenə dedi:

– Əlini mənə cik-ərəcik!

Pıspısa xanım cavab verdi:

– Yeri, mənciyəz səndən küsərəcik!

Siçan üçüncü dəfə dedi:

– Əlini mənə cik-ərəcik!

Dozanqurdu dedi:

– Yeri, mənciyəz səndən küsərəcik!

Axırda siçanın acığı tutdu, bir ovuc palçıq götürüb çırpdı dozanqurdunun başına və dedi:

Küsərəciksən-küsərəcik,
Üstünə palçıq endirəcik.

Dozanqurdunun oradaca canı çıxdı. Yazıq Dozanqurdu Düzxatun!

## Məsəllər:

Yaxşılıq elə, at dəryaya, balıq bilməsə, xalıq bilər.

Yaxşılığa yaxşılıq hər kişinin işidir,
Yamanlığa yaxşılıq ər kişinin işidir.

Yamana yaman bəla
Qoy gəlsin yaman bəla.
Rəvadır yaxşı ölə,
Yerində yaman qala?!

## DURNALARA XİTAB

Göy üzündə bölük-bölük durnalar,
Nədir sizin əhvalınız, halınız?
Bir ərz-hal yazdım yarə söyləyin,
Dost kuyuna düşər isə yolunuz.

Mənim yarım, siz də görüb şaşarsız,
Ol uca dağları necə aşarsız,
Ovçu görən kimi siz də çaşarsız,
Qışdı, qar-amandı sizin eliniz.

Baxın, şahın pəncəsinə düşərsiz,
Çeşməli dağları onda keçərsiz,
Yaz olacağın yaylaqlara köçərsiz,
Qırarsınız qanadınız, qolunuz.

Dərdli Kərəm deyər uğradım dərdə,
Canım qurban olsun mərd oğlu mərdə.
Səfil durna, nə gəzirsiz bu yerdə,
Yoxmu sizin vətəniniz, eliniz?!

Qəribəm, yoxdur arxam,
Qanadım yoxdur qalxam,
Çıxam qəlbi dağlara,
Vətənə doğru baxam!

M e y v ə c a t: Alma, armud, nar, heyva, üzüm, şaftalı, ərik, albuxara, əncir, albalı, gavalı, gilas, alça, tut, cəviz (qoz), şabalıd, fındıq.

## M ə s ə l l ə r:

Bağda ərik var idi, salam-əleyk var idi,
Bağda ərik qurtardı, salam-əleyk qurtardı.

Ağzında yaxşı yer eyləmisən, əgər baqqal armud versə.
Armud ağzıma – sapı savalana.
Bağçalar barı – heyvalar, narı, hamı dinsə də, sən dinmə barı.

## T a p m a c a l a r:

36. Ətindən kabab olmaz, qanından kasa dolmaz.

37. Hacılar həccə gedər,
Cəhd eylər, gecə gedər,
Bir yumurta içində
Yüz əlli cücə gedər.

38. Ağac başında unlu dağarcıq.



## SOLTAN BAĞI

Sənə derlər Soltan bağı,
Nə dumandır başın sənin?
Qocalardan sual etdim,
Kimsə bilməz yaşın sənin.

Əskik olmaz qarın yağar,
Buludlar bir-birin qovar,
Hər gün günəş sənə doğar,
Cəvahirdir daşın sənin.

Alt yanın bağ ilə bostan,
Dörd yanın gülü-gülüstan,
Ayırdılar məni dostdan,
Ötər qərib quşun sənin.

## QIZLAR SU DOLDURMAQDA

Axşamdan yağan qar çıxıbdır dizə,
Kəsilib bulaqdan yolu qızların.
Səhər olcaq suya onlar varanda,
Üşür barmaqları, əli qızların.
Sənəyin doldurmuş qoyar kürəyinə.
Nə ki gözəl var yığılıb kəndə,
Kəmərin bağlayıb, gərdən çəkəndə,
Keçər əbircədən beli qızların!

### **Məsəllər:**

Su sənəyi suda sınar.
Məni aparan suya dərya deyərəm.
Araz axır, gözüm baxır.



## DAĞLAR

Mən aşiq yastı dağlar,
Qar gəldi, basdı dağlar.
Üç ay toylu-bayramlı,
Doqquz ay yaslı dağlar.

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar.
Səndə dostum gəzibdir,
Səni yüz yaşa, dağlar.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy yaylaq
Yenə marala qaldı.

Başı çalmalı dağlar,
Dibi kölgəli dağlar.
Oturub yol gözlərəm,
Haçan el gəli, dağlar?!

### Məsəllər:

Dağ dağ ilə qovuşmaz, adam adam ilə qovuşar.
Güvəndiyim alçacıq dağlar, sizə də qar yağarmış?

### Tapmacalar:

39. Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi,
Əyilir su içməyə,
Bağırır ulaq kimi.
40. Alçacıq dağdan qar yağar.

# GÖYÇƏK FATMANIN NAĞILI

## 1

Biri var imiş, biri yox imiş, bircə kişi var imiş, bu kişinin bir arvadı və bu arvaddan Fatma adında bir qızı var imiş. Fatma çox ağıllı və gözəl qız imiş. Bir gün Fatmanın anası naxoşlayır və qızına deyir ki, mən öləndən sonra dədən təzə arvad alacaq və o arvad səni çox incidəcəkdir. Amma qara inəyimizdən muğayat ol, onu özün otar.

Qızın anası ölür və dədəsi gedib özgə bir arvad alır. Bu arvadın da irəliki ərindən bir çirkin qızı vardı.

Arvad göyçək Fatmanı çox döyüb incidirmiş. Fatma səbir edib, hər gün qara inəyi apararmış otarmağa. Fatmanın analığı ona yun, daraq verərmiş ki, çöldə darayıb əyirsin. Fatma yunu verərmiş inəyin ağzına. Qara inək yunu udar, sonra hazır ipi ağzından çıxarıb verərmiş Fatmaya.

Bir gün Fatma yun daradığı yerdə külək onun əlçiminin birini götürüb qalxızdı havaya. Fatma bunun dalınca yüyürüb dedi:

– Qanadına qurban, yel baba, əlçimimi sal, baba!

Yel onun əlçimini götürüb bir bacadan saldı, Fatma evə girib gördü ki, burada bir heybətli qarı oturub, alt dodağı yer süpürür, üst dodağı göy. Qarı qabağına bir qurbağa qoyub onu sığallayır. Bu, div anası idi.

Fatma qarıya baş əyib dedi ki, mənim əlçimimi ver.

Qarı soruşdu:

– Mənim başım yaxşıdı, ya ananın başı?

Fatma cavab verdi ki, səninki yaxşıdır.

Qarı soruşdu:

– Bu qurbağa göyçəkdir, yoxsa insan?

Fatma dedi:

– Könül sevən göyçəkdir.

Fatmanın sözləri qarıya xoş gəldi. Qarı onun əlçimini verib dedi:

– Gedərsən, qabağına bir ağ su, bir qara su və sonra bir qırmızı su çıxacaq. Ağ suda çimərsən, qara su ilə saçını yuyarsan, qırmızı sudan yanaqlarına sürtərsən.

Bir də qarı öz tükündən verdi və dedi ki, mən sənə lazım olsam, yandırarsan, yanında hazır olaram.

Fatma tükü götürüb, necə ki qarı demişdi, elə də elədi. Qabaqca ağ suda çimdi, sonra qara suda saçlarını yudu və qırmızı sudan götürüb dodağına, yanaqlarına çəkdi. Elə göyçək oldu, misli və bərabəri tapılmadı.

Analığı Fatmanın gec gəldiyini görüb qızına dedi:

– Çıx, gör Fatma necə oldu.

Qızı çıxıb gördü ki, Fatma gəlir, amma elə gözəlləşib ki, adam baxanda gözü qamaşır.

## 2

Fatma evə gələndə analığı onu danladı. Qızın gözəlliyini görüb soruşdu:

– Haradan sən belə gözəl oldun?!

Fatma başına gələni analığına söylədi, o da sabahısı günü Fatmaya dedi ki, indi sən evdə otur, qoy bu gün mənim qızım getsin inəyi otarmağa. Ana öz qızına yun,

daraq verdi. Yel bunun da əlçimini götürüb qaçırdı və gətirdi həmin damın bacasından saldı. Qız əlçimin dalınca yüyürüb içəri girdi və qarıya dedi:

– Əlçimimi ver.

Qarı dedi:

– Başıma bax, sonra verim.

Qız onun başına baxanda qarı soruşdu:

– Mənim başım yaxşıdır, yoxsa nənənin başı?

Qız dedi:

– Sənin başın pisdir, nənəmin başı yaxşıdır.

Qarının buna acığı tutub dedi:

– Gedərsən, qabağına bir ağ su çıxar, bir qara su. Qara suda çimərsən, ağ suda başını yuyarsan.

Qız ağ suda başını yuyub qara suda çimdi, daha da çirkin və kifir oldu. Anası bunu görüb Fatmaya bərk acığı tutdu və hirsindən az qaldı çatlasın. Fatmanın acığına istədi onun inəyini öldürsün. Çünki işlərin başı inək idi.

Bir gün arvad dalına bir-iki lavaş bağlayıb, üzünə zəfəran çəkib girdi yorğan-döşəyə. Əri evə gələndə arvad bir o yana, bir bu yana döndü, lavaşı dalında qırdı. Əri soruşdu:

– Arvad, sənə nə olub, sümüklərin elə şaqqıldayır, rəngində belə saralıbdır?

Arvad dedi:

– Bərk naxoşam, ölürəm, qara inəyi gərək kəsəsən. Mən onun ətindən yesəm, bəlkə, diriləm.

Kişi istəmədi Fatmanın inəyini öldürsün. Amma əlacı kəsilib dedi:

– Qoy Fatma evdən bir yana getsin, inəyi kəsim.

İnək bunların fikrini qanıb Fatmaya dedi:

– Məni kəsəcəklər. Amma sən mənim ətimdən yemə və sümüklərimi yığıb bir yerdə basdır. Hər vaxt istəsən, gəl o yerə, üstünü aç, orada bir dəst paltar və bir cüt qızıl başmaq taparsan.

Fatma inək ilə evə qayıdanda atası onu iş dalınca göndərib inəyi kəsdi. Fatma qayıdıb inəyini ölmüş görüb çox ağladı. Haray hara çatacaqdır? İnəyin ətindən heç yemədi və sümüklərini yığıb bir yerdə quyuladı.

### 3

Sabahdan xəbər çıxdı ki, padşahın oğluna toy olur. Fatmanın analığı yerə bir çanaq darı səpib dedi ki, bunları bir-bir yığarsan çanağa. Yanında bir küp də qoyub dedi, bunu da ağlayıb göz yaşı ilə doldurarsan. Öz qızını da geyindirib-kecindirib apardı toya.

Yazıq Fatma qəmgin oturub başladı ağlamağa. Birdən qarı yadına düşdü. O verdiyi tükü yandırdı. Həmin saat qarı hazır oldu. Fatma başına gələni ona söylədi. Qarı dedi:

– Qəm yemə, tezliklə hamısı başa gələr.

Qarı ayağını vurdu yerə. O dəqiqə yerdən bir toyuq yanının cücələri ilə çıxdı, darını təmiz dənlədilər, çanağı qarının gətirdiyi başqa darı ilə doldurdular.

Qarı Fatmaya dedi:

– Küpü də təmiz su ilə doldurub içinə bir ovuc duz tök, o da olsun göz yaşı.

Sonra Fatma ilə qarı getdilər inəyin sümüyü basdırılan yerə. Buranı qazıb gördülər ki, bir dəst zərif ipək parçadan

libas və bir cüt qızıl başmaq çıxdı. Burada çoxlu qızıl da vardı. Qarı libası, başmağı geyindirdi Fatmaya və bir az qızıl, bir az da torpaq götürüb Fatma ilə getdilər toya.

Burda qarı dedi:

– Bu qız mənim nəvəmdir, qoyun bu da oynasın.

O, Fatmanın bir ovcuna qızıl, bir ovcuna da torpaq qoyub tapşırdı ki, analığının tərəfə oynayanda onların üzünə torpaq səp, özgələrin tərəfinə oynayanda qızıl.

Fatma da çox gözəl oynayırdı. Hamı onun oynamağına aşiq oldu. Amma analığı tərəfə oynayanda torpaq səpdi, özgələri tərəfə oynayanda qızıl. Oynayandan sonra Fatma tələsik qayıtdı evə. Çox tələsdiyinə görə körpüdən keçəndə başmağının bir tayını saldı suya..

Fatmanın analığı toydan qızıl ilə qayıdıb gördü ki, Fatma evdə oturub, öz tapşırdığı işləri də yerinə yetirib. O, çox qəzəbli idi.

Fatma soruşdu:

– Ay ana, toyda nə gördünüz?

Analığı acıqlı dedi ki, heç zad görmədik, bir günü qara gəlmiş qız çıxdı, oynadı, özü də sənə oxşayırdı. Biz tərəfə oynayanda torpaq səpirdi, özgələri tərəfə oynayanda qızıl-gümüş səpirdi.

Fatma dedi:

– Mən evdən çölə çıxmamışam, sən buyurduğun işlərin dalınca olmuşam.

## 4

Bir gün padşahın oğlu ova çıxmışdı. Körpünün yanından keçəndə istədi ki, atına su versin. At suya yaxınla-

şanda xorruyub su içmədi. Padşahın oğlu adam saldırıb çayı axtartdı. Onun içindən bir qızıl başmaq tapdılar. Başmaq çox zərif idi. Padşahın oğluna çox xoş gəldi. İstədi ki, nə tövr olsa, axtardıb onun yiyəsini tapsın və özünə alsın.

Çox gəzdilər, tapmadılar. Carçılar car çəkəndə Fatmanın analığı eşitdi, onun əl-ayağını bağlayıb saldı təndirə və öz qızının ayaqlarını yuyub qazıdı.

Padşahın oğlunun adamları axtara-axtara gəlib çıxdılar Fatmagilin evinə. Çirkin qızın ayağına başmağı geydirdilər, olmadı. Soruşdular ki, sizin evdə özgə qız yoxdurmu? Fatmanın analığı cavab verdi ki, yoxdur. Amma Fatmanın bir xoruzu var idi, bu xoruz başladı banlamağa:

Fatma bacım təndirdə,
Ayaqları kəndirdə!

Arvad nə qədər istədi, xoruzu qovsun, olmadı. Xoruz sıçradı damın üstə, uca səs ilə banladı:

Fatma bacım təndirdə,
Ayaqları kəndirdə!

Padşahın adamları bunu eşidib, təndirə baxdılar: gördülər ki, bunun içində bir gözəl qız əl-ayağı kəndir ilə bağlanmış yıxılıbdır. Qızı çıxardıb başmağı onun ayağına geydirdilər. Gördülər ki, başmaq elə bil onun ayağına biçilibdir. Apardılar padşahın oğluna. Padşahın oğlu bunu görən kimi cani-dildən aşiq oldu və yeddi gün-yeddi gecə toy eləyib Fatmanı özünə arvad aldı. Yedilər, içdilər, yerə keçdilər, siz də yeyin, için, muradınıza yetişin!

**Məsəllər:**

Könül sevən göyçək olar dünyada.
Yetim qızsan, qıvrıl yat!

Meşə ağacları: palıd, qarağac, fıstıq, vələs, dəmirqara, göyrüş, ağcaqayın, cökə, şam ağacı, ardıc, tus, söyüd, bədmüşk, qızılağac, qovaq, çinar.

Kollar: qarağat, qaragilə, böyürtkən, moruq, əzgil, zirişik, zoğal, mərdəşə, qoyungözü, itburnu, yasəmən, nəstərən, qızılgül, tobuluğu, göyəm, qora, qızılçax.

Otlar: əvəlik, qoyunqulağı, quzuqulağı, qantəpər, qırxbuğum, sığırquyruğu, xatınbarmağı, qara ot, ayıdöşəyi, dəvədabanı, qıjı, xımı, pişikcırnağı, baldırğan, unnuca, südlü pencər, kiğ, cacığ, gicitkən, naşır, qazayağı, cincilim, şomu, boyana, qanqal, yarpız.

Çiçəklər: gülxətmi, sarıçiçək, göyçiçək, arşınçiçək, qaymaqçiçəyi, lalə, zanbaq, nərgizgülü, nilufər, birəotu, kəklikotu, sumrux çiçəyi, huy çiçəyi, bənövşə, qərənfil.



## KƏKLİK

Səhər-səhər sərt qayalar küncündə,
Oxur, səsi gələr gözəl kəkliyin.
Dağlar ətəyində çınqıl içində
Bulunmaz yuvası gözəl kəkliyin.
Səhər-səhər əllərində var malım,
Tülək tərlan ilə könlün almalım,
Yaşıl nimtənəlim, gülgəz çalmalım,
Kətandır köynəyi gözəl kəkliyin.

### Məsəl:

Hamı bilir ki, dağda kəklik gözəldir.

### Tapmacalar:

41. Dağdan gəlir banı xanım,
Əlləri hənalı xanım.
Dindirsən farsı danışar,
Tükləri tehranı xanım.

42. Kəkliyin qan ayağı,
Qan əli, qan ayağı.
Aşıq bir şey görübdür,
Üç başı, on ayağı.

## Məsəllər:

Yeyərsən qaz ətini, görərsən ləzzətini.
Qaz vur, qazan doldur.

## Yanıltmac:

Kəklik, kəpənək, gəlin gedək: kol dibinə gəlin gəlibdir.

## TƏRLAN

Yaxşı olar tərlanların irisi,
Qabaqca gedər kəklik sürüsü,
Boynunda var külabatın çilgisi,
Ağ olar qaşları şahi tərlanın.

Xanlar, bəylər əl üstündə götürər,
Götürəbən ovlağına yetirər,
Şəhd çəkər, binəsini itirər,
Onda düşər tərsilaşi tərlanın.

### Məsəllər:

Tülək tərlan yerinə sar bağlamaq olmaz.
Tərlan yerini sar tutmaz.

Əti yeyilən quşlar: kəklik, turac, qırqovul, çil, bildirçin, ördək, qaz.

Ətyeyən quşlar: tərlan, qızılquş, qaraquş, qırğı, sar, çalağan, quzğun.

Oxuyan quşlar: bildirçin, sığırçın, qaratoyuq, torağay, alacəhrə, həzar[1], qumru.

---

[1] Həzar – bülbül.

G e c ə  u ç a n  q u ş l a r: bayquş, yapalaq, gecəquşu (yarasa).

**T a p m a c a:**

43. Mən gedirəm beləsinə,
Qaragözün məhləsinə,
Quşlardan hansı quşdur,
Süd verir balasına?

## DÜZGÜ

Ay afərin, gül oğlum,
Gül oğlum, sünbül oğlum.
Oğlum, oğlum, naz oğlum,
Dərsindən qalmaz oğlum.
Qələmini al ələ,
Yaxşı-yaxşı yaz, oğlum.
Oğlum gedər məktəbə,
Oxur, çatar mətləbə.
Dərsin oxur rəvanlar,
Nə oxuyubdur, anlar.
Daş üstə çiçək qazar,
Məşqini göyçək yazar.
Mənim oğlum candı, can,
Dərsləri oxur rəvan.
Gümüşdəndir dəvatı,
Qələmi var beş-altı.
Qələmdanı şəkilli,
Qələmi xallı-mullu
Dəftəri var tərtəmiz,
Kitabı ondan əziz.
Kağızları rəngbərəng,
Oğlum, gətir, yaz görək.
Oğlum səhərdən durar,
Əl-üzün təmiz yuyar.
Üzünə gülab vurar,
Saçın, birçəyin darar.

Paltarını təmizlər,
Məktəbə göyçək gedər.
Oğlumun adı Əziz,
Üstü-başı tərtəmiz.
Oğlum hər kəsi görər,
Baş əyər, salam verər.
Oğlum küçədə qaçmaz.
Heç kəs ilə savaşmaz.
Oğlum itə daş atmaz,
Atıb günaha batmaz.
Quşlara etməz azar,
Quşların da canı var!
Pişikləri heç vurmaz,
Sərçələrə tor qurmaz.
Ay afərin, gül oğlum,
Gül oğlum, bülbül oğlum.
Dərsin oxu rəvanla,
Sonra danış, gül, oğlum!

## Məsəllər:

Oğlum əziz, tərbiyəsi ondan da əziz.
Oğul xırdası, noğul xırdası.
Şüurlu oğul neylər ata malını, şüursuz oğul neylər ata malını.

## TÜLKÜ VƏ QURD

Bir tülkü köhənsalə gedirdi,
Qismət üçün seyri-aləm edirdi.
Obadan kənarda gördü, ittifaq,
Atıblar səhrayə bir quyruqi-caq.
Diqqət ilə baxıb, tələni seçdi.
Yavuqa düşməyib, uzaqdan keçdi.
Gəzər ikən oldu bir qurda düçar,
Dedi: "Filan yerdə əcəb təam var".
Biçarəni çəkə-çəkə gətirdi.
Bir azca qalmışdı quyruğu gördü.
Dedi: "Təəccübəm, sən belə şeyə
Düçar oldun, özün yemədin niyə?"
Dedi: "Boynumda var qəza orucum,
Tutmuşam ki, saqit ola borcum".
Soxuldu quyruğu yerdən götürə,
Neçə gündür naharsızdır, ötürə.
Sıçrayıb payına tələ oldu bənd,
O yana, bu yana tullandı hərçənd;
Nə qədər güc vurdu, götürmədi əl,
Kəsilib əlacı, qaldı məətəl.
Tülkünün əlinə düşdü girəvə,
Quyruğu yeyirdi çox sevə-sevə.
Dedi: "Sən deyirdin orucam, bayaq,
Nədəndir yeyirsən indi bu sayaq?!"
Dedi: "Oruc idim, amma bu axşam
Təzə ayı görüb, etmişəm bayram".

Hiyləsinə o pürfənnin inandı,
– Bəs mənim bayramım, – dedi, – haçandır?
– Sənin də bayramın sahibi-tələ,
Gələndədir, – dedi, – tələsmə hələ.
Hər kimsə ola əqlü fəhm-huş,
Bu məsəli eyləməsin fəramuş:
Əvvəl gərək suyu yoxlasın möhkəm,
Boyluyandan sonra soyunsun adəm.
Nəinki etməyib fikir, əndişə,
Sala canavar tək özünü işə.
Həm özünün payın, həm onun payın
Tülkü yeyə bidərdi-sər, arxayın.

**Məsəllər:**

On ölç, bir biç.
Ağılsız baş sahibinə donuz güddürər.

## DƏVƏ VƏ EŞŞƏK

(Nəsihət qəbul etməyən yoldaşlar barəsində)

Görmüşəm nüsxədə bir şəhrü-bəyan.
Yük tutub sabiqən tüccari-İran.
Ticarət əzmilə hində gedərdi,
Gecə-gündüz dincəlməyib sürərdi.
Karvanda bir dəvə, bir də bir eşşək,
Arıq düşmüş idi mənim yabım tək.
Necə ki, qüdrəti var idi, getdi,
Aqibət işləri bir yerə yetdi.
Sağrısına əgər vursan yüz şallaq,
Götürməzdi ayağı üstündən ayaq.
Sahibləri çulun, alığın soydu,
Apara bilməyib, yol üstə qoydu.
Ahəstə-ahəstə üftanü xizan,
Çəkilib bir səmtə tutdular məkan.
Basəfa yer idi, ələfzar idi,
Türfə-türfə ot, ələfi var idi.
Yedilər, içdilər bir neçə müddət,
Apardılar ləzzət, sürdülər vəhdət.
Xilas olub rənci-bənnadəmdən,
Zülmi-peydər-peydən, cövrü-sitəmdən.
O qədər kökəldi hər iki heyvan,
Guya ki, hər biri kuhi- Bağrıqan.
Sağrısında, yəlpiyində ət qat-qat,
Dönübən qaşına bilməzdi, heyhat!

Bir gün eşşək dedi: "Ey dəvə qardaş,
İstərsən savaşma, istərsən savaş.
Xatirimə düşüb ahəngi-tazə,
Meylim var ki, qalxam şuri-şahnazə.
Həvayi-zövq ilə bir neçə əfrad,
Oxuyam sövt ilə hırçi badə-bad".
Dəvə dedi: "Bu nə sözdür, ay əhməq,
Müsəmma imişsən, isminə əlhəq!
Güclən qurtarmışıq rəncü təəbdən,
Növi-bəşər eylədiyi qəzəbdən.
Ötüb keçən əgər eşidə səsin,
Ol qədər yük çatar, çatlar nəfəsin.
Əmanət, əmanət, keç bu sevdadan,
Bihudə fikirdən, əbəs binadan".
Etməyib dəvənin öydün qəbul,
Qulağın şəkləyib xəri-biüsul,
Bir növ anqırmaq qoydu ki, bara,
Səs düşdü səhralara, dağlara.
İttifaq, yol ilə keçirdi karvan,
Eşidib çarvadar dağıldı hər yan.
O kolu, bu kolu basıb tapdılar,
Sevinə-sevinə minib çapdılar.
Hər birinə bir ağır yük çatdılar,
Bizləyə-bizləyə köçə qatdılar.
Yeddi-səkkiz ayda xamlamışdı xər,
Qolları çəng olub qaldı, müxtəsər.
Yükünü dəvənin üstə yıxdılar,
Yavaş-yavaş yol yuxarı çıxdılar.

Yoxuşun başına qalmışdı əndək,
Yeriyə bilməyib lap durdu eşşək.
Dedilər: qoymarıq burda qalsın xər,
Aparsaq, bir böyük məbləğə dəyər.
Onu da qoydular dəvə üstünə,
Uçurumaşağı sürdülər yenə.
Qatlayıb boynunu dedi: "Ey həmdəm!
Mənə səndən yetdi bu zülmi-sitəm.
Nəsihət eylədim, annadın qərəz.
Dedi: tərkü-adət mucibi-mərəz[1].
Dedim ki, anqırma, qalxdın həvayə,
Nahaq yerə saldın bizi bəlayə,
Əlavə, yükünü aparmadın sən,
Barkeş deyildim sənə, qoduq, mən!
O da hələ qalsın, quru boş özün
Yol ilə getməyə nə idi sözün?
İndi ki, quyruğun basdın ilanın,
Canı çıxsın gərək altda qalanın.
Mənim də könlümə düşübdü tazə
Tərənnümə gəlib duram canbazə,
Bir zaman təvəkkül təala deyim,
Qulağımı qırpıb bir az lökləyim".
Dedi: "Ey sərxeyli-külli-heyvanat!
Eyləmə bu işi heyhat, heyhat!
Məsəli-məşhurdur – kiçikdən xəta
Baş verib həmişə, böyükdən əta".

---

[1] Adəti tərgitmək mərəz törədər.

Dolmuşdu dəvənin qəlbi kin ilə.
Var idi kədəri ol bidin ilə
Löklәməyin binasını qoyan tək,
İp, imlıq qırılıb, uçqundu eşşək,
Dəyib dağa, daşa dağıldı dər-dəm,
Gərək ibrət edə bu işdən adəm.
Böyüklər pəndinə baxmaya hər kəs,
O kəsdən bilmərrə əlaqəni kəs.
Guş etməsən, nasehlərin sözünə,
Toxunur aqibət bəla özünə.
Bir dəxi danışsa hər kim bihəngam
Başı qilü-qaldan qurtarmaz müdam.
Var isə kəmalın, söyləmə əfzun,
Bu səbəblə yarar tökülsə dəva".
Kəklik səsin çıxarmasa, mən zamın,
Onu tuta bilməz dağlarda laçın".

**Məsəl:**

Bablı[1] babın tapmasa, işi ah-vay ilə keçər.

---

[1] B a b l ı – tay

## ARILAR BARƏSİNDƏ

Altı min ləşkərim altı sarayda,
Hər birisi gedər onun Sərkarə[1].
Sirrini bilmək olmaz – elmi-qeybdir,
Hər birisi gedər onun Sərkarə.
"Gün zəban" gülləri tutubdur dəstə,
Çəkibdir şanların bir-biri üstə.
Allahın heyvanı sən şirə istə,
Hər birisi gedər onun Sərkarə.
İxlas ilə qulluq edərlər xanə,
Yasavul düzülüb mərd-mərdanə,
Çəkibdir şanların tamam çar xanə,
Hər birisi gedər onun Sərkarə.

* * *

Arı yenə qaşqabağın aldırıb,
Mövlam şirə verib çox damağlandırıb.
Səndən bilirəm yaxşı dolanıb,
Əfəndi arını mən yaxşı gördüm.
Ərzə gedən müdam tapar xanəni,
Mömin tapır, əlbəttə, sübhani.
Ağardıban yaxşı çəkir şanəni,
Əfəndi arını mən yaxşı gördüm...
Bir çən gəlib Əlpavutun dağına,

---

[1] S ə r k a r – Şamaxıda yer adıdır.

Dolanırdı həm sağına-soluna,
Arı gedər Yeddi künbəd dağına,
Əfəndi arını mən yaxşı gördüm.
Yaxşı olur Mədrəsənin bağları,
Bar götürür çün onun budaqları,
Ayılıbən qızğın çəkər şanları,
Əfəndi arını mən yaxşı gördüm.
Mən babayam, çağıraram ya Tanrı,
Açılıbdır qızılgülün nübarı,
Nəqşkar otağı mötəbər şanı,
Hər birisi gedər onun Sərkarə.

## Məsəllər:

Bal tutan barmaq yalar.
Nə balın istəyirəm, nə bəlasın.
Bal yedin, bəlayə düşdün.

## TÜLKÜ VƏ ŞİR

Əyyami-sabiqdən edim hekayət,
Müstəme olanlar aparsın ləzzət.

Çin bəhrində bir cəzirə var idi,
Ziyadə basəfə ələfzar idi.

Tən edərdi ol behişti-bərinə.
Aləmdə yox idi ona qərinə.

Tutmuşdu həşərat ol mülkü vətən,
Türfə canəvərlər salmışdı məskən.

Təqdiri-qəzadan bir şir, ittifaq.
Gözəl sərzəmini eylədi yataq.

Sair heyvanata tən oldu məaş,
İçlərinə düşdü aşübü şərxaş.

Gündə üçün, dördün qovub tutardı,
Yeyib, gəlib öz yerində yatardı.

Yığılıb bir yerə oldu fərahəm,
Cəzirədə nə var isə bişü-kəm.

Binayi-məşvərət etdilər ağaz,
Axırda tutdular bu sözü mümtaz:

"Bizdə yox onunla qüdrəti-cədəl,
Ya gərəkdir çəkək bu vətəndən əl.

Ya qoyaq onunla binayi-saziş,
Dolanıb arxayın, edək güzariş.

Pərişan olmasın, bari, sağımız,
Yüyürməkdən saf əridi yağımız".

Çox keçdi arada dəlil, dəlail,
Küllühüm bu əmrə oldular qail.

Tülküyə dedilər: "Ey yari-pürfən!
Bu təklifi bizdən qəbul eylə sən.

Çünki onlar ilə başdan, binadan,
Birevli kimisiz ata-babadan.

Düşəndə eylərlər sizə məsləhət,
Xahi aşikar, xahi də xəlvət.

Dur, bu gün varid ol hüzuri-şirə,
Rəhmin gəlsin binəvayə, fəqirə.

De ki, ey sərhəngi-külli-dirrəndə!
İnsafü mürüvvət yoxdurmu səndə?

Güzarın düşübdür bizim vətənə,
Canisarıq hamı, haq bilir, sənə.

Var xəlfəyə təəllüqü Bağdadın,
Neçin yamanlıqla çəkilsin adın?

Sülhü səlah ilə düzələ bir kar,
Bu qəhrü qəzəbin nə surəti var?

Kimdir səndən müzayiqə edə can,
Keç bu mərhələdən aman, əlaman!

Nə layiqdir sənin kimi sərvərə,
Bais ola belə nahaq işlərə;

Yol kəsə dəmbədəm həramilərtək,
Vura, tuta, yıxa müxlisin görcək.

Şah istəsə olsun rəiyyət abad,
Gərək ola aralıqda qərardad.

Sən ağa, biz sənə bəndeyi-fərman,
Zilli-himayətdə qoy gəzək hər yan.

Dəhyeki-divanə nədir sözümüz,
Bu yolları yaxşı billik özümüz.

İtaət etməsə malikə məmluk,
Olmaz aralıqda təriqi-süluk.

Gündə bir çarpa eylərik irsal,
Yeyərsən, yatarsan, bicürmü vəbal".

Küftü şeno ta ki, yetdi payanə!
Görün tülkü nə gətirdi bəhanə!

Dedi: "Əsirgəməm bir qaşıq qanı,
Bəli, laf vuranlar gen gündə, hanı?

Xirsi-qəviheykəl, xuki-pirğürur,
Gürgi-şikarəfkən. Çəqqali-məğrur.

Yaxşı gündə mənəm-mənəm deyənlər,
Ovu göydə alıb, göydə yeyənlər.

Seyid edən zamanda salmazlar yada,
Deməzlər bir parça verək ona da.

Yaman gündə tamam durub kənara,
İstər bir fənn ilə özün qurtara.

Məni qətlgahə eylərlər rəvan,
Mən rubahi-aciz, o şiri-jəyan.

Əgər bir pəncəsin vursa sərimə,
Xurd-xurd olub, tamam dollam dərimə.

Dinəndə deyərsiz əhli-tədbirik,
Məsəldir: güclüyə nə duz, nə çörək?!

Göndərin laəqəl mərdi-hünərvər,
Yetirsin ərziniz, gətirsin xəbər".

Yerbəyer dedilər: "Ey tülkü qardaş,
Bu sözü söyləməz əcamir, ovbaş.

Küllühüm aləmi tuta qiylü-qal,
Heç adətdə yoxdur elçiyə zaval.

El namusu elə düşər, əzizim,
Yaman yerə yetib işimiz bizim.

Doğrudur, gen gündə biz laf vurarıq,
Gərdən çəkib, yal qabardıb durarıq.

Hanı bizdə o növ adabü ədəb,
Təqrirati-məlih, ləfzi-müntəxəb.

Böyük hüzurunda deyək, danışaq,
Kürəyə düşməyən olmaz yumuşaq.

Bir ağaca çəkilməyə ta körpü,
Nə dər olur, nə dərvazə, nə körpü.

O ki sənsən – hər elmdə mahirsən,
Fəhmü fərasətdə xalqa zahirsən.

Yüz kari-müşkülə gör qoyasan əl,
Göz yumub açınca səyin eylər həll.

Xidmətində eyləmişik təğafül,
Əfv eylə cürmümüzü, ey piri-aqil!

Hörmətin lazımdır bizlərə, amma
Axtarma keçəni, "məza ma məza".[1]

Əgər ki, olmasa səndən bir çarə,
Gərəkdir vətəndən olaq avarə".

Söylədilər əfzun, dedilər bihədd,
Tülkü eyləməyib iltiması rədd.

Yola düşdü getdi badi-sərsər tək,
Təbəssüm eylədi şir onu görcək.

Çün özü bu əmrə minnətkar idi,
Baş tutdu dərzaman, meyli var idi.

Qayıdıb yetirdi xəlqə bəşarət:
İndən belə gəzin dəxi fərağət.

Bəs ki, hasil oldu bu müddəalar,
Eylədilər şahə xeyrü düalar.

Hər firqədən gündə bir fərbeh davar
Göndərdilər, həm şam ola, həm nahar.

Bu hal ilə dolandılar bir müddət,
Ta inki tülküyə yetişdi növbət.

İlk axşamdan çovuş eylədi izhar,
Kim: "Rəsəd sizindir, olun xəbərdar.

---

[1] Keçən keçdi (ərəbcə).

Göndərin gecədən bir rübahi-çağ,
Məbada ki, əmir ola, bidamağ".

Var idi bir pürfən kətxudaləri,
Çox yola salmışdı belə işləri.

Əshabü əqranın yığıb səmtinə,
Dedi: "Bu keyfiyyət ar gəlir mənə;

Bizim hiyləmizdən çərxi-kəcrəftar
Gecə-gündüz daim ölüm arzular.

Vəhmü hərasından afitabü mah
Çəkir üzlərinə pərdeyi-siyah.

Əksimizi görsə suda divü dəd,
İlim-ilim itər ta ruzi-əbəd.

Yarım saat əgər bizi görsə ac,
Özün kola soxar qırqovul, turac.

Hər məkrdə ola ictihadımız,
İndi ara yerdə itə adımız.

Haq bilir, deyiləm mən ziyanlıqdan,
Ölüm yeydir belə zindəganlıqdan.

Əbəs-bəs gələ bir şiri həpənd,
Dövləti-qədimə yetirə gəzənd.

Bu əmrin olmasa bizdə çarəsi,
Sağalmaz ölüncə, bilin, yarəsi."

Dedilər ki: – "Ey sərxeyli-əqrəba,
Xaliq edib səni bizə kətxuda.

Olmasaydı səndə fəhmü fərasət,
Bir məlcəü məva tapardıq, əlbət,

İxtiyar sənindi, səlah sənindi,
Nə isə, tədbirin işə sal indi".

Kətxuda üstünə karı yıxdılar,
Sözlərin danışıb, tez dızıxdılar.

Sübhədək yatmayıb qoca kətxuda,
Bəstəri-fikirdə çevrindi ol, ta.

Səhər oldu, ay gizləndi, gün doğdu,
Ol qədər atının cilovun boğdu.

Keçdi şirin naharının zamanı,
Kəsildi acından tabü təvanı.

Ahəstə-ahəstə iftanü xizan
Yetişib hüzura çəkdi ələman.

Dedi: "Ey sərvəri-külli-cəzirə!
Rəhmin gəlsin binəvayə, fəqirə.

Bir ölkənin olmaz iki sərdarı,
Lazımdır ki, sən çəkəsən bu arı.

Gətirirdim sizə bir çağ, kök şikar,
Ərzi-rəhdə oldum bir şirə düçar.

Bunca dedim, təməsidir əmirin,
Həddi nədir olsun hər yetən şirin?

Pəndü nəsihətə olmayıb qail,
Göndərdi bir neçə föhşü latail.

Zor ilə şikarı əlimdən aldı.
Özümə də bir bol bənbəcə[1] çaldı.

Koldan-kola qaçıb gəlmişəm naçar,
Bundan sonra dəxi ixtiyarın var".

Bir tərəfdən aclıq, bir yandan söyüş,
Şir özün itirib getdi əqlü huş.

Halü təbiətdən çıxdı bir babət,
Sözün axırına verməyib fürsət.

Yola düşüb dedi: "Dayanma, zinhar,
O yer ki görübsən, məni tez apar!"

---

[1] Sillə, qapaz deməkdir

Sabiqən görmüşdü bir çahi-pürab,
Fil düşsə, olurdu mədumu nayab.

Çəkə-çəkə getdi səmtinə,
Dübarə başladı təzərrə[1] yenə.

Dedi: "Yaxınlaşıb şirin məkanı,
Məndə yoxdur dəxi getmək imkanı.

Məgər ki, alasan püşti-sərinə,
Görən dəmdə tullayasan girinə.

Eləsən onunla cəngi-sultanı,
Mən olam nüsrətin mədihəxanı".

Axmaq ol pürfəni alıb dalına,
Hər kimin əqli var xoşa halına!

Quyu kənarına gəlib yetişdi,
Nəzəri özünün əksinə düşdü.

Öylə sandı şiri-peykardır bu,
Sıçradı üstünə bivəhmü qayğu.

Tülkü özün atmış idi kənarə,
Qərq oldu bu suya dər-dəm biçarə.

Hiylə ilə eylədi azad,
Qayıtdı mənzilə xürrəmü dilşad,

---

[1] T ə z ə r r ə – ah-zar, yalvarmaq.

Çoxdu yolu bu məsəlin dünyadə,
Mən özüm görmüşəm həddən ziyadə.

Biri o ki, hər kəs xalqa zülm edər,
Aqibət ədl ilə fənayə gedər.

Biri o ki, hakimani-bitədbir,
Çahi-intiqama qərq olur çün şir.

Biri o ki, biməsləhət, biəndiş.
Bu dari-dünyada düzəlməz heç iş.

Biri o ki, sanma düşməni həqir,
Eylər səni axır bəlayə əsir.

Xətadır dolanmaq, xülasə-kəlam,
Xətm oldu hekayət, baqi vəssalam.

**Məsəllər:**

Zülm ilə abad olan ədl ilə bərbad olar.
Acın amanı olmaz, toxun imanı.

## DƏVƏ, İLAN VƏ TISBAĞA

Bir dəvə, bir ilan, bir də tısbağa
Yoldaş olmuşdular bundan sabiqa.

Xanəyek müttəfiq, yekdil, yekcəhət,
Yox idi arada bir sirri-xəlvət.

İkisinin əkli[1] rig[2] idə torpaq,
Dəvənin töməsi giyahü yarpaq

Gəzərkən tapdılar bir girdə çörək,
Dedilər: aparıb mənzildə yeyək.

Nəhayət, bunların kini var idi,
Muzi[3] idi, çünki hiyləgər idi.

Bir-birinə dedi: "Bizə nə lazım
Kim, belə axmağa olaq mülazim.

Həmi yerdən yeyir, həmi həvadən,
Yalvarıb bir çörək alaq xudadən.

Aparıb onunla üç yerə bölək,
Aldadarıq, qalar özümüzə əppək".

---

[1] Ə k l i – yeməyi.

[2] R i g – toz, qum.

[3] M u z i – qorxaq fikirli.

Muzilər qoydular binayi-möhkəm,
Dəvəyə dedilər: "Ey yarü həmdəm.

Həqqi bu kim, üç gündü binaharıq,
Görürsən nə kunə olmuşuq arıq.

Tapdığımız həmin bir girdə nandı,
Gər üç yerə bölək, haman hamandı.

Məsəldir: bir paydan bir kişi doyar,
Gər bölünə – ikisin də ac qoyar.

Yaxşı odur – bunu yesin birimiz,
Dost-düşmənə faş olmasın sirrimiz.

Olsun şol yeyənin tabü təvanı,
Ara yerdə nahəq çıxmasın canı.

Əlbəttə, yetirir qasimül-ərzaq,
Qoymaz bizi acu-susuz qırılaq".

Dedi: "Nə desəniz, mənim sözüm yox,
Həqq bilir ki, özgə payda gözüm yox.

Püşk atsanız əgər, raziyək püşgə,
Qoy düşsün, düşəcək hər kimə kişgə".

Dedilər: "Nə lazım püşk alaq ələ,
Şükr olsun xudayə, münsifik hələ.

Hər kəs öz yaşını eyləsin izhar,
Gördük birimizin artıq sinni var –

Cahıllar əl çəksin binəvadən,
Nəsibin istəsin bari-xudadən.

Şol qocaya olsun ta inki qüvvət,
Bəlkə yol bacara bir neçə müddət".

Dəvə qaldı labüd laəlac, naçar,
Dedi: "Özüz bilin, ixtiyarız var".

İlan tısbağaya dedi: "Ey rəfiq,
Əvvəl de, sənindir həm yol, həm təriq".

Dedi: "Daş başıma, küllər gözümə,
Bavər edən olsa mənim sözümə.

Ol xaliqi-yekta həyyü-ləmyəzəl[1]
İcadi-adəmə qoyan vəqt əl,

On-on beş yaşında hazır idim mən,
Bir əcəb məkanda tutmuşdum vətən.

Gördüm ki, Adəmə can verdi Allah,
Mən dedim qurtardım, indi bismillah!"

---

[1] H ə y y ü-l ə m y ə z ə l – həmişə canlı, diri, yəni Allah.

Həqdi, dil-dodağın çeynədi üştür,
Saribani-qəza dedi ki, diş[1] dur!

Ondan sonra növbət yetdi ilanə,
Gətirdi sinnini şərhü bəyanə.

Dedi: "Ey biçarə, uşaq imişsən,
Bəs neçün olubsan ha böylə gühən?

Ol zaman ki, həyyü qadiri-muxtar
İstədiki yer-göy ola bərqərar.

Adəm harda idi, Həvva kim idi?
Məlaiki-ərşi-əla kim idi?

Bir xaliqin özü, bir mən var idim,
İndi belə görmə, bir minar idim.

Müruri-zəmanın evi yıxılsın.
Mənim kimi xanimanı dağılsın.

İndi mari-çubə həmtasiyəm mən.
Həq bilir ki, mütləq tanımaz görən".

Dəvə zahir edib bir nimxəndə,
Dedi: "Öz yaşımı deyərəm mən də".

---

[1] D i ş – dinc.

Götürüb ağzına yerdən çörəyi,
Başladı ahəstə tər göyşəməyi.

Dedi: "Ey mədəni-hədyanü kəzaf!
Bu söz ilə dəvə uşaq imiş saf".

Lazımdır şol yerdə bu növ misal,
Nəsihət eyləsin xəlqə əhli-hal.

Özündən böyüyə etsə xəyanət,
Ac qalır, etməsin əlbət, səd əlbət.

Bir adam ki, qoya hiylə binası,
Aqibət özünə dəyər xətası.

Yoldaş yoldaş ilə xədəng nisbət,
Düz gərək ta ruzi-həşrü qiyamət.

Əgər əyri ola dəruni, çün yay,
Kirişi qırılıb axır olur zay.

Müşküldü nəzm etmək hər belə nəsri,
Əfv eyləsin arif gər olsa kəsri.



## TISBAĞA, QARĞA, KƏSƏYƏN, AHU

Bir tısbağa, bir kəsəyən, bir qarğa
Yoldaş olmuş idi bundan sabiqa.

Pakizə zamanda tutuban vətən,
Asibi-dəhrdən asudə, eymən.

Övqat keçirdi yazü, yayü, qış,
Eyşü nuşə məşğul idi bitəşviş.

Bir ahu şol yerə eyləyib güzar,
Üç ikən həmdəmü həmrah oldu çar.

Səhərdən dağılıb hərə bir yana,
Günorta zamanı gəlib məkana.

Başından keçəni eylərdi söhbət,
Bu hal ilə dolandılar bir müddət.

İttifaqən, bir gün gəlməyib ahu,
Aldı yoldaşların canını qayğu.

Qarğaya dedilər: "Dur, aç pərü bal,
Gətirib biçarədən bizə bir əhval.

Şayəd ki, fəqiri, xudanəkərdə,
Damə salmış ola səyyad bir yerdə".

Biməksü təvəqqef ovcə qalxıb zağ,
Dolanıb hər tərəf edərkən soraq.

Gördü ki, heyvanı səyyadi-birəhm,
Üqubəti-həqdən eyləməyib vəhm,

Tutub, əl-ayağın bağlayıb möhkəm
Atıb günə qarşı, özü gedib həm.

Dami-təzvirini qurubdu genə,
Şayəd özgə şikar sala cənginə.

Ahuyi-pabəndə verib təsəlli,
Qanadı on isə, eyləyib əlli.

Gəlib həmrəhlərə gətirdi xəbər,
Bir parə naləvü şiyvən etdilər.

Təkəllümə gəlib dedi kəsəyən:
"Onun əncamını yaxşı billəm mən.

Məni qanadının üstünə götür,
O yer ki, ahunu görübsən, yetir.

Be-hövli-qüvveyi-xaliqi-zülmən
Bir ləhzədə bəndin parə, qıllam mən".

Bu tədbiri həmə eyləyib pəsənd,
Oldular, filcümlə, dilşadü xürsənd.

Kəsəyəni qarğa alıb dalına,
Olan gücün verib pərü balına.

Bir zaman yetirdi ahuya muşi,
Qalmamışdı səbrü qərarü huşi.

Zərbi-dandan ilə kəsib kəməndin,
Bir əndək qalmışdı dəf edə bəndin.

Gördülər tısbağa üftanü xiyzan,
Özünü yetirdi şol yerə nalan.

Zəbani-təərrüz etdilər diraz,
Söylədilər: "Bu nə işdi, anlamaz?!

Nə fikr ilə gəldin burayə, görək,
Səndən bizə olacaqdı nə kömək?

Məgər ki, gələndə səyyadi-pürfən
Biz qaçaq, qalasan aralıqda sən!

O da bizə ola əlahiddə dağ,
Gərəkdi dübarə çalaq əl-ayaq!"

Dedi: "Ey yarani-ba-istiqamət,
Ayini-dostluqda deyil mürüvvət –

Aşinanın biri gəzə asudə,
Şol birisi qala dami-qayğudə.

Girəm ki, məsrəfim yoxdur bir karə,
Necə dura billəm sizdən kənarə?

Tanrı o yoldaşa eyləsin qəzəb,
Kim, dari-dünyada ola xüdtələb!

Üç həmrəhi-sadiq tək olsun azad,
Mənimki səhldir, hərçi bada-bad!"

Göftügunu bunlar etməmiş təmam
Gördülər ki, gəlir mərdi-bədəncam.

Həmrəhi-çarümdəm əl çəkib naçar,
Ahu, siçan, qarğa etdilər fərar.

Səyyad gəlib ol məqamə yetişdi
Kim, ahunu pabənd edib getmişdi.

Baxıb hər tərəfə etdi nəzarə,
Görmədi be-qeyr əz rismani-parə.

Bir də bir tısbağa zarü sərəgərdan,
Yaşınmaq qəsdilə dolanır hər yan.

Bəs ki, çox yüyürüb eniş-yoxuşa,
Ov tapmayıb əli çıxmışdı boşa.

Tısbağanı labüd torbaya saldı,
Ağzını bağlayıb dalına aldı.

Yornuq köpək kimi ovçu ahəstə
Yola başladı, ixtiyarı güsəstə.

Qarğa dövr eyləyib ovci-həvadə,
Baxardı əməli-ibni-Ziyadə.

Gətirdi həmrəhi-fərarə xəbər,
Hali-binəvadən olub müstəhzər.

Muşi-sahibi-huş tapıb bir tədbir,
Dedi: "Durmaq vəqti deyil, ey nəxcir!

Sən eylə məkr ilə payını axsaq,
Səyyadın önündə dolan bir sayaq.

Fikr eyləsin asan tutacaq səni,
Xəyali-xam ilə atıb kisəni,

O olsun şikarın tutmağa məşğul,
Mən ollam torbanı yırtmağa məşğul.

Ol zaman ki, qarğa eylədi səda,
Bil ki, tısbağanı etmişəm rəha.

Səbr eylə bir qədər ta ki, biz qaçaq,
Sən də sıçrayıb gəl yenə qarışaq".

Bu məkr ilə oldu dü məhbus azad,
Qayıdıb gəldilər məsrurü dilşad.

Bu məsəlin vardır ona nisbəti:
Bir kəsin bir kəsə ola ülfəti,

Gərək zar olanda, o da zar ola,
Həmişə dostundan xəbərdar ola.

Nəinki dost qala dami-bəladə,
O gəzə arxayın dəştü səhradə.

Həm dəxi həqarət gözilə, zinhar,
Baxıb bir adəmə eyləmə inkar.

Hər meşəyə güman aparma boşdur,
Xudbinlik kişiyə nə kari-xoşdur.

Yazıbdır Sədiyi-şirin kəlam,
Əmləhüş şüəra, arifi-əyyam:

"Hər bizə güman məbər ki, xalist,
Şayəd ki, pələng, xüfte başəd".[1]

---

[1] Tərcüməsi:

Hər meşəyə güman aparma boşdur,
Bəlkə də, orada pələng yatmışdır.

## M ə s ə l l ə r:

O baş sınsın ki, dost yolunda gərək olmaz.
Dostun sirrin dost bilər.
El yığılsa, kərən sındırar.

## T a p m a c a:

44. Altı taxta, üstü taxta,
    Oturub bir ağ otaqda.
    Qoyun deyil, otlayır,
    Toyuq deyil, yumurtlayır.

45. Alçacıq dağdan ilxı endirir.

## OĞRU VƏ EV YİYƏSİ

Bir oğru girmişdi bir evə yara,
Hər nə var, şeyini yığıb apara.
Axtardı, orada bir zad olmadı,
Kisəsi boş qalıb onun dolmadı.
Ev yiyəsin gördü palanda yatıb,
Anlayıb işini qüssəyə batıb.
Evdən çıxıb istədi ki, o gedə,
Gördü dalda bir səs gəlir – a gedə,
Gəl otur, altına mən salım döşək,
Bir zad da tapmısan əgər, bölüşək.
Oğru duydu ona tənə eyləyir.
Sərasər bağrını onun tiliyir.
Söylədi: nə sayaq olsa mən yenə,
Dünyada dolannam, gir sən hinə.
Çıx özünə bir gün ağla, mən yalan,
Ar eylə, üstünə salma sən palan.
Ey əzizim, bu məsəldən ibrət et,
Elmdən varlı ol, yaşa sən də get.

### Məsəllər:

Oğru qalana yanar, sahib gedənə.
Oğrudan qalanı falçı aparar.
Oğru elə bağırır, doğru küncə qısılır.



## ARANLA YAYLAĞIN BƏHSİ

Aran deyər, yaylaq, çox da saxlama,
Göndər gəlsin, ağır ellər mənimdir.
Yerin göbəyiyəm, dizin dirəyi,
Malu-mülkü Süleymanlar mənimdir.

Yaylaq deyər, çıxma dindən, imandan,
Süsəndən, sünbüldən, hər gülüşəndən;
Həkimlik, loğmanlıq qalıbdı məndən,
Həzaran[1] dərdlərə dərman mənimdir.

Aran deyər, bağça mənim, bağ mənim,
Gecə-gündüz qulluq eylər bağbanım.
Geymək üçün yaşıl mənim, al mənim,
Süsən, sünbül, gülşənliklər mənimdir.

Yaylaq deyər, mənəm çeşmələr başı,
Axar, heç qurumaz didəmin yaşı,
Pələnglər yatağı, ovçu sirdaşı,
Köksü ala, qarlı dağlar mənimdir.

Aran deyər, qaldım dağ arasında,
Piltətək qurudum yağ arasında,
Qıvrım-qıvrım olmuş tağ arasında,
Tutma ala qarpız, tağlar mənimdir.

---

[1] Həzaran – min.

Yaylaq deyər, mənəm xalqın göyçəyi,
Məndə yatar aranların qaçağı,
Lalə-səmən, dürlü-dürlü çiçəyi,
Pətəkdə kəsilən ballar mənimdir.

Aran deyər, məndə bulunar maya,
İnsini, cinsini götürrəm vaya,
Payızın fəslində qurulan taya,
Xirməndə çevrilən vəllər mənimdir.

**(Aşıq Ələsgər)**

## M ə s ə l l ə r:

Aranda tutdan olduq, dağda qurutdan.
Şahbudağın bağı var,
Heyvası yox, narı yox!
İstəmirəm heyvasını, narını,
Qoy desinlər: Şahbudağın bağı var.

## DURNALARA XİTAB

Bir saat havada qanad saxlayın,
Nizam ilə gedən qoşa durnalar!
Qatarlanıb nə diyardan gəlirsiz,
Qaqqıldaşa-qaqqıldaşa, durnalar?

Mən sevmişəm onun ala gözünü,
Nəsib ola bir dəm görəm üzünü;
Yoxsa danışırsız dilbər sözünü;
Veribsiniz nə baş-başa, durnalar?!

Diyari-ğürbətdə müddətdi varam,
Gecə-gündüz canan deyib ağlaram;
Mən də sizin kimi qəribü zaram,
Eyləməyin məndən haşa, durnalar!

Laçın yatağıdır bizim məkanlar,
Yavaş-yavaş gedin, səsiniz anlar,
Qorxuram toxuna ötən zamanlar,
Sürbəniz[1] dağılıb çaşa, durnalar!

Zakirəm, od tutub, alışıb cigər,
Var isə canandan sizdə bir xəbər,
Təğafül[2] etməyin Allahı sevər
Dönməsin bağrınız daşa, durnalar!

---

[1] S ü r b ə n i z – dəstəniz, sürünüz.

[2] T ə ğ a f ü l – qəflət göstərmə, özünü bilməməzliyə vurma.

## VƏTƏN

Ah, ey safü paki- xaki-vətən,
Nə gözəlsən, nə yaxşısan, nəsən!
Nə gözəldir sənin çölün-çəmənin,
Dağü bağın, gül ilə yasəmənin.
Məni çün bəslədin qucağında,
Yenə yer ver mənə bucağında
Axır ömrümdə et məni rahət,
Mənə bəsdir bu çəkdiyim qürbət.
Məni bətnindən eylədin peyda,
Yenə bətnində et məni ixfa.
Ey vətən, ey canım sənə qurban!
Neçin əhlin olub sənin nadan?
Əlmədəd, ey mühəndisani-vətən,
Vətənin xanəsi olubdu köhən.
Hüsn təmirinə qılın himmət,
Onun abadına edin qeyrət.
Dərdinə vəqt ikən edin çarə
Ta həlak etməyə onu yarə.

**Abbas ağa Nazir**



## SAYAÇI SÖZLƏR

Səlam-əleyk say bəylər,
Bir-birindən yey bəylər!
Saya gəldi gördünüz,
Salam verdi aldınız
Alnı təpəl qoç quzu
Sayaçıya verdiniz.

Siz sayadan qorxmusuz,
Səfa yurda qonmusuz,
Səfa olsun yurdunuz,
Ulamasın qurdunuz.
Ac getsin avanınız[1]
Tox gəlsin çobanınız.

Bu saya yaxşı saya,
Həm çeşməyə, həm çaya,
Həm ülkərə, həm aya,
Həm yoxsula, həm baya
Bu saya kimdən qaldı?
Adəm atadan qaldı.

Adəm ata gələndə,
Qızıl öküz duranda,
Qızıl buğda bitəndə,

---

[1] A v a n – düşmən, burada qurd mənasındadır.

Dünya binnət olanda,
Musa çoban olanda
Şişliyimiz erkəcdi.[1]

Onun dərdi uludur,
Aşıqlığı qurudur.
Ucası qiymətlidir,
Qabırğası dadlıdır.
Qabırğa içrə pərdə,
Salmaz adamı dərdə.
Pərdəsi iki rəngdir.
Böyrək ona dirəkdir,
Altmış arşın bağırsaq,
Bir-birinə ulğaşıq.
Zinhar qoyunu vurma,
Qoyunsuz evdə durma!

Qoyunlu evlər gördüm,
Qurulu yaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər!
Əzəl atasın deyim,
Sonra anasın deyim.
Qoyun var, kərə gəzər.
Qoyun var, kürə gəzər.
Gedər dağları gəzər.
Gələr evləri bəzər.

---

[1] E r k ə c – qoyunun qabağında gedən buynuzlu keçi.

Kərəsidi oyunun,
Kürəsidi qoyunun
Dağları biz gəzərik.
Çevrəsində qoyunun.

Nənəm qoyunun qarası,
Qırxlığı polad parası,
Yaz günü dəmləməsi,
Yay günü kürəməsi,
Qış günü qovurması!

Nənəm o şişək qoyun,
Yunu bir döşək qoyun,
Bulamanı bol elə,
Qırıldı uşaq, qoyun!

Nənəm qumral tat qoyun,
İldən-ilə art qoyun.
Balalar ölməkdədir,
Ölmə gəl, namərd, qoyun!

Nənəm o saçaq qoyun,
Birədən qaçaq qoyun,
Sənə yaman baxanın
Gözünə bıçaq qoyun!

Nənəm o kürdü qoyun,
Otladı, durdu qoyun.
Ay qaranlıq gecədə
Görübdü qurdu qoyun.

Nənəm o göycə qoyun,
Gedərsən öycə qoyun.
Yeyən sənin ucundan
Dolanır bəycə qoyun.

Nənəm boz, ala qoyun,
Yolda suzala qoyun.[1]
Yeyən sənin ucundan
Gözəl qız ala, qoyun.

Nənəm o gəlin qoyun,
Quzuna təlin[2] qoyun,
Yeyən sənin ucundan
Gətirib gəlin, qoyun.

Nənəm o qəmər qoyun,
Quzusu əmər qoyun,
Yeyən sənin ucundan
Bağlayıb kəmər, qoyun.

Nənəm a qaşqa qoyun,
Minmisən eşqə qoyun,
Yeyən sənin ucundan
Çıxıbdır köşkə qoyun.

---

[1] S u z a l a m a q – yorulmaq, əldən düşmək.

[2] T ə l i n – mehriban, səmimi olmaq, mehr salmaq.

Nənəm o qızıl qoyun,
Yollara düzül qoyun.
Ölməmisən, qalmısan,
Qalasan yüz il qoyun.

Nənəm o səkil qoyun,
Belində kəkil qoyun,
Ay qaranlıq gecədə
Arxaca çəkil, qoyun.

Nənəm qaraqaş qoyun,
Qarlı dağlar aş, qoyun,
Ay qaranlıq gecədə
Çobana yoldaş, qoyun!

Nənəm qoyunun gəlini,
Avşara gəlməz yelini,
Onu sağan gəlinin
Xınalıyım əlini.

Nənəm qoyunun uzunu,
Döşdə bəslər quzunu,
Sağına yatar gözlər,
Soluna yatar bozlar.
Əli çanaqlı qızlar,
Qoyunun yolunu gözlər.

Çoban qoyunu götürəsi,
Onu dərəyə yetirəsi,
Ağbiləkli gəlinlər
Sağım-sagım deyəsi.
Ağbirçəkli qarılar
Buluyum-buluyum deyəsi.

Bu oğlumun düyəsi,
Bu qızımın düyəsi
Sarı suyu qalanda
Boz köpəyə tökəsi.

Ucu yanıq kösöv ilə
Boz köpəyi döyəsi
Qara başlı boz köpək
Yeri qoyuna deyəsi.

Xırdaca-xırdaca qızlar,
Əli xınalı qızlar,
Əllərində çanaqlar
Bərənin yolun gözlər.

Qoyunun özü gəldi,
Dolandı düzü, gəldi,
Çobanın qucağında
Bircə cüt quzu gəldi.

Can quzu, canım quzu,
Tükü çalır qırmızı,

Əbrişim telli quzu,
Qonurdu onun gözü,
Biri gəlinin olsun,
Biri çobanın payı,
Üzün ağ olsun, çoban.

De, bayrama nə qaldı?
Nə qaldı, nə qalmadı?
Bir əllicə gün qaldı!
Əlli günü say ötür,
Qarmala, quzu götür!

Əlli günü, gecəsi,
Sağmal subay seçəsi.
Sayan yağış[1] yağası.
Sarmaşıq ot bitəsi.

Quzu quyruq tutası,
Ovlaq irtmək atası.
Kərəsindən, ağından,
Öldürümsüz sağından.

Qoyun nədən hasil oldu,
Kimya yarpağından,
Bizimcün də gətirin,
Qormasından, yağından.
Yağ verənin oğlu olsun!

---

[1] Sayan yağış – yaz yağışı, leysan.

Doğduğu oğlan olsun!
Yarma verənin qızı olsun,
Qızı da qotur olsun!
Qoturuna qurd düşsün,
Qurdundan quş tapılmasın!

Qısa-qısa gələnin
Qısnacağı dar olsun.
Basa-basa gələnin
Basmacığı bərk olsun,
Sizin də damağınız çağ olsun,
Oğul-qızınız sağ olsun!

## NƏSİHƏT

Ağac bəsləginən barın yeyəsən,
Avara palıddan heyva, nar olmaz.
Namərd yalançıya sirrin söyləmə,
Bivəfa dilbərdən sənə yar olmaz.

İgid odur, tənə oxun atmasın,
Halal mayasına haram qatmasın,
Bir oğul ki, ata sözün tutmasın,
O oğulda namus, qeyrət, ar olmaz.

## TAPMACALARIN CAVABI

1. Yəhər
2. Pişik
3. Xoruz
4. Sac
5. Buxarı
6. Toyuq
7. Xalça
8. Yumurta
9. Yumurta
10. Siçan və pişik
11. Qoyun
12. Nehrə
13. Yəhər-əsbab: cilov, sinəbənd, üzəngilər, quşqun
14. Balıq, ayı, dəyirman, halva
15. Oxlov
16. İtin, donuzun, qoyunun və inəyin əmcəkləri
17. İlin fəsilləri
18. Qamış
19. Əncir
20. Dörd (iki bala, ata, ana)
21. Əncir
22. Heyva
23. Taxıl
24. Qarğıdalı
25. Qoza
26. Pambıqtəmizləyən maşın
27. Məfrəş
28. Cəhrə

29. Yağış
30. Uşaq
31. Pul
32. Göy, ulduzlar, ay
33. Yeni doğulmuş uşaq
34. Nar
35. 2401 tülkü balası
36. Nar
37. Qarpız
38. İydə
39. Mancanaq
40. Ələk
41. Kəklik
42. İnək, onu sağan və buzov
43. Yarasa
44. Çanaqlı bağa
45. Ülgüc

# KİTABIN İÇİNDƏKİLƏR


Mühərririn ifadeyi-məramı........3
İt və pişik........4
Xoruz və padşah........7
Qanacaqlı qaraçı........8
Tülkü........11
Üzlü qonaq və ev yiyəsi........12
Ərincək it........15
Toyuq........16
Qarı və pişik........18
Qoyun........23
Üşüdüm ha, üşüdüm........25
Keçi........26
İnək, öküz və camış........27
Eşşək və dəvə........29
Bişmişlər, çörəklər və içkilər........33
Çoban........34
Səməni........37
Qurd........38
Ağ qoyun........41
Düzgü........42
Dəvə və tikan........44
Nazikbənazik-Tazikbətazik........47

Layla ....50
Bala barəsində ....52
Qardaş barəsində ....52
Gəlinin sözləri ....53
Qayınananın sözləri ....53
Yaz ....54
Günəşi çağırmaq ....57
Qızlar nəğməsi ....58
Bostan və dirrik məhsulatı ....60
Tülkü və üzüm ....61
Buğda, arpa və darı ....65
Darı və buğda ....65
Tülkünün hekayəti ....67
Düzgü ....71
Şəngülüm, Şüngülüm, Məngülüm ....73
Güdü-güdü ....79
Vur nağara, çıx qırağa ....81
Tülkü və kəklik ....83
Pıspısa xanım və Siçan bəy ....87
Durnalara xitab ....93
Soltan dağı ....97
Qızlar su doldurmaqda ....98
Dağlar ....101
Göyçək Fatmanın nağılı ....102
Kəklik ....111
Tərlan ....113

Düzgü ... 115
Tülkü və qurd ... 117
Dəvə və eşşək ... 119
Arılar barəsində ... 123
Tülkü və şir ... 125
Dəvə, ilan və tısbağa ... 136
Tısbağa, qarğa, kəsəyən, ahu ... 143
Oğru və ev yiyəsi ... 150
Aranla yaylağın bəhsi ... 153
Durnalara xitab ... 155
Vətən ... 156
Sayaçı sözlər ... 159
Nəsihət ... 166
Tapmacaların cavabı ... 167

Şərq East
Qərb West
1986-cı ildən since 1986
BAKI 2013

"Şərq-Qərb" Nəşriyyat Evinin məhsuludur.

**www.eastwest.az**
**www.fb.com/eastwest.az**

Buraxılışa məsul SEVİL İSMAYILOVA
Dizayner KƏRİM MEHDƏVİ
Səhifələyici ƏLƏKBƏR KƏRİMOV
Korrektor RƏHİLƏ HƏSƏNOVA
Texniki redaktor GÜLTƏKİN YUSİFOVA
Baş redaktor SAMİRƏ BEKTAŞİ
Texniki direktor ALLAHVERDİ KƏRİMOV
Nəşriyyat direktoru RASİM MÜZƏFFƏRLİ

Çapa imzalanmışdır: 13.09.2013. Format 54x84 1/8. Ofset çapı.
Fiziki çap vərəqi 21,5. Sifariş N 13140. Tiraj 500

"**Şərq-Qərb**" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Nəşriyyat Evinin bütün kitablarının toplusu:
**http://www.eastwest.az/az/books/** ünvanda







9 789952 404494
Şərq Qərb East West
1986-cı ildən since 1986
BAKI 2013